Bilirsənmi insan niyə yaranıb ?
Niyə gəlib-niyə gedir dünyadan ?
Bilirsənmi dünya niyə yaranıb ?
Elə hey fırlanır heç yorulmadan.

Niyə cüt yaranıb gözünlə-qaşın ?
Ürəyinsə birdənədir bax nədən ?
Həyat nədir-ömür nədir-eşq nədir ?
Görmədiyin Allahı sevmək nədir ?

Ağıl-vicdan-ruhun hikməti nədir ?
Niyə hər şey insana xidmət edir ?
Dağlar-dəniz-çaylar niyə yaranıb ?
Gecələrin qaranlığı nədəndir ?

Xəstəliklə-dərd-qəm niyə yaranıb ?
Dəli olmaq-lal doğulmaq nədəndir ?
Nədir ruhun sirrindəki müamma ?
Hər kəsin əl izi nədən fərqlidir ?

Doğulurkən ölür nədən körpələr ?
İlahi ədalət-rəhmət nədədir ?
Zəlzələylə-vulkan hər cür fəlakət
Müharibələr bu qırğınlar nədəndir ?

Möcüzə-kəramət-ilham da nədir ?
Nə aləmdir röyada gördüklərin ?
Bilən varmı ulduzların sayını ?
Fələklərin işi-gücü nələrdir ?

Peyğəmbərlər niyə gəldi bizlərə ?
İnam nədir-iman nədir-din nədir ?

Ayələri kim açıqlar bizlərə ?
Savab nədir-günah nədir-düz nədir ?

Yaradana nədən səcdə eyləyək ?
Namaz qılmaq əgər bizə gərəksə
Əl qaldırıb nədən dua eyləyək ?
Xəstəlik dərmanla keçib gedirsə.

Ölən insan dirilərmi bir daha ?
Əbədi dünyanı görən olubmu ?
Cəsədlər çürüyür dönür torpağa
Ölüb-dirilməyə sübut olubmu ?

Doğurdanmı mələk-şeytan-cin də var ?
Bəs insan onları görməyir nədən ?
Onların varlığı kimə gərəkdir ?
Bu sınaq-imtahan nədəndir-nədən ?

Özünü tanısan Haqqı bilərsən
Bu sözün mənası-hikməti nədir ?
Mən elmin şəhəri-Əli qapısı
Elimsiz bir dinin təməli nədir ?

Şəriyyət-təriqət-mərifət nədir ?
Nədən dini öyrənməlidir insan ?
Təvəkkül-təfəkkür-təkəmmül nədir ?
Hansı alimlərə inansın insan ?

Quran birsə-Allah birsə-yol birsə
Ayrı-ayrı təriqətlər nədəndir ?
Müsəlmanlar Yaradanı sevirsə
Ən çox zülmü onlar çəkir nədəndir ?

Hər sualın bir cavabı bizdədir
Cahil qalma kim olursan-ol da gəl
Bilməmək yox-öyrənməmək eyibdir
Yüz kərə tövbəni pozsan yenə gəl.

ELÇİN

Hacı Ramin İGİDOV:

# MƏQSƏDİMİZ MEHRİBAN ALLAHIN DİNİNİ XALQA ÇATDIRMAQDIR

**GÜRCÜSTAN MÜSƏLMANLARI İDARƏSİNİN RƏHBƏRİ VƏ ŞEYXİ SEÇİLƏN HACI RAMİN İGİDOV 1980-Cİ İLDƏ QARDABANİ ŞƏHƏRİNDƏ ANADAN OLUB. ALİ DİNİ TƏHSİLİNİ AZƏRBAYCANIN CƏLİLABAD RAYONUNDA DİNİ ELM MƏRKƏZİNDƏ ALIB. 2000-Cİ İLDƏN GÜRCÜSTANA QAYIDIB, İMAM ƏLİ ADINA MƏDRƏSƏNİN MÜDİRİ OLUB. "İMAN", "NÜMUNƏVİ AİLƏ" DƏRGİLƏRİNİN REDAKTORU, QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ TƏRƏFİNDƏN RUSTAVİ ŞƏHƏRİNİN AXUNDU OLUBDUR. BİR-NEÇƏ SAYT RƏHBƏRİ, KİTAB TƏRCÜMƏÇİSİ VƏ MÜƏLLİFİDİR. EVLİDİR, İKİ OĞLU VAR.**



**Müxbir:** - ***Cənab şeyx, Gürcüstan ictimaiyyətinin əsas hissəsi Sizi təlif və tərcümə etdiyiniz bir neçə kitab müəllifi, dərgi və kitablar redaktoru, savadlı bir din xadimi kimi tanıyır, yeni seçilmiş Gürcüstan Müsəlmanları İdarəsinin layiqli rəhbəri və şeyxi kimi qəbul edir. Yeri gəlmişkən, bu münasibətlə Sizi təbrik edir və Ulu Tanrıdan gələcək fəaliyyətinizdə uğurlar diləyirəm!***

**Hacı Ramin:** - (Bismillahir-Rəhmanir-Rəhim). Çox sağ olun. Üzərimə düşən bu ağır və çox məsul işdə mənə dəstək olan hər bir kəsə öz minnətdarlığımı bildirirəm!

Yaxşı bəllidir ki, xalqımızın keçmişi, milli-mənəvi dəyəri, mədəniyyəti həmişə İslamla bağlı, İslamla əlaqəli olubdur. 70 il hökm sürən sovet ideologiyası xalqımızı dindən-imandan uzaqlaşdırmağa cəhd edir, onları saxta yola çəkirdi. 90-cı illərin əvvəllərində baş verən demokratik hərəkat keçmiş SSRİ məkanında yaşayan bütün xalqlara, təbii ki, biz Gürcüstanlı azərbaycanlılara da, hər bir sahədə olduğu kimi dində də sərbəstlik verdi və ulu xalqımız doğma dininə üstünlük verərək öz tarixinə qayıtdı. İndi artıq əsrlərin süzgəcindən keçərək bu günümüzə qədər qoruyub saxlaya bildiyimiz milli-mənəvi, dini adət-ənənələrimizi yaşatmaq və onu düzgün şəkildə insanlara çatdırmaq biz din xadimlərindən asılıdır. Din mənəviyyatın əsasını təşkil edir. Dini liderlər isə yüksək əxlaqlı və mənəvi cəhətdən saf insanları tərbiyə edərək öz müqəddəs vəzifələrini yerinə yetirməlidirlər.

**Müxbir:** - ***Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri cənab Paata Zakareişvili Sizinlə görüş zamanı Gürcüstanda yaşayan müsəlmanların dini hüquqlarının qorunması ilə bağlı həyata keçiriləcək planlar olduğunu qeyd etdi.***

**Hacı Ramin:** - Son zamanlar müsəlman dininə göstərilən qayğıya görə Gürcüstan dövlətinin yeni rəhbərliyinə öz minnətdarlığımı bildirirəm. Dövlət naziri P.Zakareişvili görüşdə: -Bu hələ başlanğıcdır. Gürcüstanda yaşayan müsəlmanların dini hüquqlarının qorunması ilə bağlı həyata keçirəcəyimiz planlar var, -dedi. Bu sahədə doğrudan da illərcə mövcud problemlər yığılıb. Dinin qorunması və digər problemlərlə bağlı nazirliklə bizim birgə iş planımız olacaq. İnşallah yaxın gələcəkdə bu məsələlərə baxacaq və digər problemləri həll etməyə çalışacağam. Mənimlə görüşdə dövlət naziri onu da qeyd etdi ki, müsəlmanlar, məzhəbindən asılı olmayaraq, bu ölkənin vətəndaşlarıdır və bizim borcumuz, hər sahədə olduğu kimi, vətəndaşlarımızın dini mənəvi dəyərlərinə hörmətlə yanaşıb, tolerant ölkəmizdə azad şəkildə yaşamalarına, dinlərinə, bütün bölgələrdə olan sağlam dini təşkilatların fəaliyyətinə şərait yaratmaqdır.

**Müxbir:** - ***İlk görüləcək işlər haqqında nə deyərdiniz.***

**Hacı Ramin:** -İlk öncə şeyxin üzərinə düşən səlahiyyətlərin icrasında Allahın razılığı ilə dinin əqidə və prinsiplərini, xalqın etimadını və dövlətin maraqlarını nəzərə alaraq sağlam (xurafatdan, təhrifdən, bidətdən uzaq) dinin təbliğinə və yaşamasına şərait yaratmalı, inanclıların siyasətdən, məzhəb ayrıseçkiliyindən, digər çirkin məqsədlərdən uzaq duraraq, saf dini ayin və mərasimlərini icra etmələrinə imkan yaratmalı, məntəqələrinin dini ehtiyacını ödəyəcək səviyyədə dini savadı olan, yerli əhali tərəfindən qəbul edilən hörmətli, tədbirli, təşkilati işləri bacaran, işində münəzzəm, dövlətə və qanuna zidd təfəkkürlü olmayan şəxsləri yerlərdə axund, din xadimi təyin

etməliyik. Ali dini savadı olan ruhanilərdən ibarət məsləhət-məşvərət şurası, xanımlar şurası, gənc müsəlmanlar yığıncağı, ağsaqqallar şurası və s. yaratmalı, Həcc, Ömrə, Kərbala, Məşhəd və digər müqəddəs məkanlara ziyarət etməli, müsəlmanların yığcam yaşadığı yerlərdə inanclıların dini ehtiyacını ödəyəcək bir məscid və ya ibadətxananın inşa edilməsinə şərait yaratmalı, təmirə ehtiyacı olan məscid və tarixi dini məkanların abadlaşmasına yardım etməliyik.

**Müxbir:** -*Gürcüstanda mövcud Qafqaz Müsəlmanlar İdarəsi ilə əlaqəniz olacaqmı?*

**Hacı Ramin:** -Dini qurumumuzun və ruhanilərin əsas məqsədi, qayəsi mehriban Allahın dinini və dini dəyərləri insanlara çatdırmaqla əhali arasında vətəndaşlıq, insanlıq hüquqlarının qorunması, insanların bir-birinə sevgi, qarşılıqlı hörmət əsasında davranmasına zəmin yaratmaqdan ibarətdir. Bu baxımdan ölkədə olan bütün dini təşkilatlarla olduğu kimi QMİ ilə də sıx əlaqə saxlamaq, maarifləndirmə və s. sahələrdə əməkdaşlıq etmək niyyətindəyik.

**Müxbir:** - ***Dini mərasimləri icra edən yetərincə dini savadı olmayan "din xadimləri" barədə hansı tədbirlər görüləcək?***

**Hacı Ramin:** -Gələcəkdə dini atestasiya komissiyasının yaradılmasını nəzərdə tutmuşuq. Din xadimləri yoxlanaraq hansı dini rütbəyə layiq olub hansı dini ayini icra etmək səlahiyyətinə malik olmaları təsdiqlənəcək. Bütün görüləcək hər hansı bir işdə məşvərət şurasının iştirakı və ümumi rəyindən sonra qərar veriləcək. Atestasiyadan keçə bilməyənlər üçün qısa müddətli kurslar təşkil olunacaq, onlara bu sahədə biliklərini artırmağa bir daha imkan veriləcək.

**Müxbir:** ***- Özünüz qeyd etdiyiniz kimi sovetlər dövründə xalqı dindən uzaqlaşdırmışdılar və elə o səbəbdən bu gün də əhalinin dini maarif səviyyəsi qənaətbəxş deyil...***

**Hacı Ramin:** -Elə bu baxımdan dini bilgiləri öyrədən kitabların nəşri ümdə vəzifələrimizdən biri olacaq. Onu da qeyd edim ki, bu sahədə biz Gürcüstan ruhaniləri əvvəllər də az iş görməmişik. Bildiyiniz kimi dinlə maraqlanan bəzi oxucuların xahişi ilə müsəlmançılığın şərtlərini, İslamın əqidə üsullarını, ehkam və əxlaqi dəyərlərini, ilkin dini bilgiləri öyrədən "Müsəlmansansa bilməlisən" adlı kitabım 6 dəfə cəmi 14 min tirajla cap olunub, gürcü dilinə də tərcümə edilib və əsasən Qərbi Gürcüstanda yayımlanıb. Həmin kitab artıq android telefon formatlarında internetdə də mövcuddur. "Nümunəvi ailə" və "İman" dərgilərinin redaktoru olmuşam, onlarla kitabça və broşüralar nəşr etmişik, bölgələrdə dini tədris və təlim işləri ilə məşğul olmuşuq, dini bayramlar, təvəllüd və şəhadət günləri qeyd etmişik. Yəni, onu demək istəyirəm ki, heç bir maneə ilə qarşılaşmadan dinimizi həmişə azad yaşamışıq. Gələcəkdə illik təqvim, münasibət və bayramlar haqqında, namaz vaxtlarını bildirən broşüralar, habelə aylıq dərgi, Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı yazarlarının dini zəmində olan şeir və hekayələr kitabını, axundlar üçün yararlı olan təbliğ kitabını, ilkin dini bilikləri əks etdirən tərbiyəvi sahədə divar guşələri, Gürcüstanın məscid və dini abidələri haqda albom, GMİ-nin rəsmi saytı təşkil ediləcəkdir. Müsəlmanların yığcam yaşadığı yerlərdə Ramazan, Qurban bayramlarının təbrik bannerləri quraşdırılacaq, müəyyən seminar, konfrans və müxtəlif görüşlər təşkil ediləcək. Ayda bir dəfə müxtəlif dini, tərbiyəvi aktual mövzularda seminarlar təşkil edəcəyik. Bütün bunlar və digər görüləcək tədbirlər, təbii ki, dini durumun inkişafına və mövcud problemlərin həllində böyük rol oynayacaq, ənənəvi dini düşüncələrin inkişafına öz təsirini göstərəcəkdir.

**Müxbir:** - ***Gürcüstan hökumətinin iclasında Baş nazir İrakli Qaribaşvili Gürcüstanda fəaliyyət göstərən müxtəlif dinlərin dövlət tərəfindən maliyyələşdiriləcəyini bildirib. Onlardan 4 din: İslam, qriqoryanlıq, katolik və yəhudi dinləridir.***

Hacı Ramin: - Biz bu qərarı alqışlayırıq. Dövlətimiz bu günə qədərki fəaliyyətimizə müsbət qiymət verib və digər sahələrə olduğu kimi, din sahəsinə də maliyyə ayıracaq. Tarix boyu Gürcüstanda bütün dinlərin nümayəndələri sülh və mehriban qonşuluq şəraitində yaşayıb, dini ehtiyaclarına sərbəst əməl edə biliblər. Ölkə rəhbərliyi bu gün də bütün vətəndaşlarına bərabər və eyni hüquqda baxdığı kimi müsəlmanlara və İslam dininə eyni baxır. Dövlətin bərabər səviyyədə bu dinə də maliyyə ayırması tolerantlığın bariz nümunəsidir.

Müsahibəni yazdı: Əziz DƏLİVƏLLİ.

# Biz Quranın tanıtdıqları içində hansı dəstədənik?

***Qurani-Kərim Həzrət Peyğəmbərin (s) mübarək qəlbinə nazil olandan sonra bəşərə həqiqi həyat yolunu tanıtmışdır. İnsanlar həyatda dünya meyarları ilə ölçülərlər. Ancaq Quran insanın haqqa olan meylinə görə onları dörd qrupa bölmüşdür:***

**Birinci qrup: Keçmişləri yaxşıdır və aqibətləri də yaxşıdır.**

İlahi peyğəmbərlər (ə) bu qrup insanlardandır ki, Allah onların həyatına əvvəldən axıra qədər salam göndərir.

“Salam və (hər bir qorxu və əzabdan) əmin-amanlıq olsun ona o gün ki, doğuldu, o gün ki, öləcək və o gün ki, diri(ldilərək) qaldırılacaq”. (“Məryəm” 15).

Həzrət İsa (ə) haqqında buyurur: “Salam olsun mənə o gün ki, doğuldum, o gün ki, öləcəyəm və o gün ki, diri(ldilərək) qaldırılacağam”. (“Məryəm” 33).

İnsani xilqətindən ki, hədəf - ruhun təharəti və İlahi xəlifə məqamına çatmaqdır. Bu da vacibatlara əməl etmək və haramları tərk etməklə hasil olar. Bu, aqibətin xeyirli olması üçün ən mühüm rəmzdir. Bütün peyğəmbərlər (ə), Məsum İmamlar (ə) pak insanlardır. Belə ki, Allah Təala onların haqqında buyurur: “Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-Beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) pisliyi təmizləmək və sizi – paklığın bütün cəhətlərində – pak etməyə iradə edir”. (“Əhzab” 33).

**İkinci qrup: O kəslərdir ki, keçmişləri pisdir, aqibətləri də pisdir.**

“Şübhəsiz, küfr edənlər (və öz küfrlərində israr edənlər) üçün onları qorxutmağınla qorxutmamağın birdir, iman gətirməyəcəklər. Allah onların qəlblərinə və qulaqlarına (bədbəxtlik) möhür(ü) vurmuşdur və onların gözlərində (qəflət) pərdə(si) vardır. Onlara böyük bir əzab veriləcəkdir”. (“Bəqərə” 6-7).

Bu insanların havayi-nəfsləri və qəlb xahişləri onları uçuruma tərəf sürükləmiş və dünya ləzzətlərini axirətlərinə dəyişmişdilər. Onlar bir zərrə qədər belə tövbə haqqında düşünmürlər.

**Üçüncü qrup: O kəslərdir ki, keçmişləri pisdir, aqibətləri isə yaxşıdır.**

Bu dəstə insanlar o insanlardır ki, iman nuru hələ də qəlblərində sönməmişdir. Bu nur, hidayət yolunu üzlərinə açar. Həyat yollarında ikinci dəstə kimi deyildirlər. Hidayət olmaqları üçün hələ də ümid vardır. Saleh əməl, yaxşı niyyət, ata və anaya ehtiram bəsləmək, insaf, rəftarlarında olan igidlik bir gün qığılcıma çevrilib hidayət yolunu üzlərinə açacaqdır.

Fironun sarayında olan sehrbazlar Həzrət Musanın (ə) möcüzəsini görəndən sonra ona iman gətirdilər və tövbə etdilər. “Və sehrbazlar (ixtiyarsız olaraq) səcdəyə düşdülər. Dedilər: «Aləmlərin Rəbbinə iman gətirdik. Musa və Harunun Rəbbinə!». Firon dedi: «Mən sizə icazə verməmişdən qabaq ona iman gətirdiniz? Bu, şübhəsiz, (sizinlə Musanın) bu şəhərdə onun əhalisini oradan çıxarmaq (qibtiləri çıxarmağınız və İsrail övladlarını saxlamaq) üçün qurduğunuz bir hiylədir. Odur ki, tezliklə biləcəksiniz! Həqiqətən, mütləq sizin əllərinizi və ayaqlarınızı çarpazvari (birini sağdan, birini soldan) kəsəcək, sonra isə şübhəsiz, sizin hamınızı dar ağacından asacağam». Dedilər: “(Onsuz da) Biz Rəbbimizə tərəf dönəcəyik (buna görə də sənin hədələrindən qorxmuruq)””. (“Əraf” 120-125).

**Dördüncü qrup: Keçmişləri yaxşıdır, aqibətləri isə pisdir.**

Qarun bu dəstə insanlara misaldır. O, xarlıq və zillət ilə dünyadan getmişdi. O, Həzrət Musanın (ə) yaxın qohumlarından idi. Tövrat haqqında məlumatı çox idi. İlk möminlərin cərgəsində qərar tutanlardan olmuşdu. Ancaq təkəbbürü və sərvəti sayəsində küfrə düçar olur. Tarixdə oxuyuruq ki, o, bir tərəfdən Bəni-İsrailin Firon sarayındakı nümayəndəsi idi və o biri tərəfdən sarayın xəzinədarı idi. Firon Bəni-İsraili istismar etmək üçün onların içindəki ən xəbis insanı seçib nümayəndələri edir. Firon öləndən sonra isə sərvəti Qaruna qalır və Həzrət Musa (ə) bu sərvəti geri ala bilmir. “Beləliklə onu (Qarunu) və evini yerə batırdıq. Allahın (əzabı) müqabilində ona kömək edə biləcək (dostlarından və nökərlərindən ibarət) bir dəstə də yox idi. Onun özü də özünü müdafiə edə bilmədi”. (“Qəsəs” 81).

“(Onlar deyərlər:) «Ey Rəbbimiz, bizi doğru yola yönəltdikdən sonra qəlblərimizi azdırma və bizə Öz tərəfindən bir rəhmət bəxş et, çünki, çox-çox bağışlayan Sənsən!»”. (“Ali-İmran” 8).

Allahım, bizləri bir an belə özbaşına buraxma. Heç bir şeyə etimad yoxdur, nə imana, nə gözəlliyə, nə təhsilə, nə yaxşı ailəyə, nə vaxtında qılınan namaza, nə gecə namazına. Bütün bunların hamısı Sənin tofiqinin sayəsində olar. Əgər Allahım, bizləri bir an özbaşına buraxsan, yoxluğa tərəf süqut edərik.

(Tebyan)




# TƏQVANIN NƏZƏRİ VƏ ƏMƏLİ AMİLLƏRİ (1)

***Təqva elə bir qüvvədir ki, onun vasitəsilə insan özü və istəkləri üzərində hökmranlıq qazanır. Qazanılmış bu səltənət və hakimlik nəinki onun günahlardan qorunmasına, hətta günahın cazibə meydanından özünü uzaqlaşdırıb ondan pəhriz edə bilməsinə səbəb olur.***

Bu qüvvə təkrarlamalar və məşəqqətlərdən əldə olunan ruhi və mənəvi qüdrət və bacarıqdır. Nəfsin kəraməti, bu mələkuti gövhərin üstünlüyü və günahın çirkinliyini tanıma nəticəsində elə bir zaman yaranır ki, bu insan günaha düşmür.

Bu zəmin məad, qiyamət, əməllərin hesablanmasının zikri, axirət aləmi ilə müqayisədə dünyanın məhdudluğunun xatırlanması ilə qüvvələnir. Digər tərəfdən isə ilahi rəbbilik, Allahdan başqa camal və cəlal sifətləri şeytan və onun vəsvəsələrini tanımağa, Allahın əmr və nəhyləri (qadağaları), şeytanın vəsvəsə və aldatmalarını qiymətləndirməyə səbəb olur. İnsan onda başa düşür ki, Allahın dəvətini qəbul etmə onun diriliyinə, şeytanın dəvətini qəbul etmə isə insanın aradan getməsinə gətirib çıxarır.

Əlbəttə, insan bu tanımalarla yanaşı əməli işlərə də üz tutmalıdır ki, ruhunu qüvvətləndirib həmişə mərifətinə uyğun şəkildə addım ata bilsin. Necə deyərlər, «Əməlsiz elm meyvəsiz ağac kimi», «saleh əməlsiz kamal kamansız ox kimidir.»

Təqvanın yaranıb qidalanma mənbələri bunlardır:

1. Tanıma mənbəyi.
2. Əməl mənbəyi.

**Tanıma mənbəyi**

Tanıma mənbəyi öz növbəsində bir neçə hissələrə bölünür:

1. Nəfsi tanıma.
2. Allahı tanıma.
3. Günahın həqiqətini tanıma.
4. Dünyanı tanıma.
5. Axirəti tanıma.
6.Şeytanı tanıma.

Əlbəttə insan bir məsələni də yadda saxlamalıdır ki, bu tanımalar unutqanlıqdan uzaq olmalıdır, əks təqdirdə insan dərk etməklə yanaşı, günaha da yaxınlaşa bilər.

**Nəfsi tanıma:**

Təsəvvür edək ki, bir kəsin qiymətli bir yaqutu vardır. O şəxs həmin yaqutu tanımadığına görə onun dəyərinə varmadan asanlıqla atəşə atıb külə döndərə bilər. Allahın əmanəti olan ruh da belədir. İnsanı maddi varlıq bilən bir kəs təbii ki, onun səadət və xeyrini də maddi məsələlərdə görər. Lakin əgər o, insanın həqiqətini mücərrəd bir iş bilsə, onun xeyir və xoşbəxtliyini maarif, əxlaq və mənəvi fəzilətlərdə axtarmağa çalışar. Bu mövzuda hər şeydən əvvəl insan özü üçün əhəmiyyət kəsb etməlidir ki, xeyir və şərrini, fayda və zərərini tanımaq niyyətində olsun. Əgər belə bir niyyətdə olarsa, xeyir və mənfəəti özünə götürər, şərr və zərəri isə özündən uzaqlaşdırar.

İmam Əli (ə) buyurur: «İnsan ilahi təqvanı qəbul etməli, öz xeyrini istəməlidir və ölümün yetişməsindən qabaq tövbə edib şəhvətinə qalib gəlməlidir.» (Nəhcül bəlağə, xütbə 64)

İnsanın öz xeyrini istəməsi təqvanın ən ali mərtəbəsidir və bu hal iki amil əsasında yaranır:

1. İnsan özü üçün xeyir və kamal sayılan bir sıra həqiqətləri tələb etməlidir.
2. Öz nəfsi özü üçün əhəmiyyət və dəyər kəsb etməlidir.

İnsan bu məqama yüksəldikdən sonra özünü tez keçən, müvəqqəti ləzzətlərə satmaz və digər məxluqlar qarşısında öz ilahi kəramətini qoruyar. Allah-təala buyurur: «Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın ço-

xundan xeyli üstün etdik. (İnsan şüur, nitq qabiliyyəti, gözəl surət, boy-buxun, əllə yemək və s. bu kimi məziyyətlərinə görə həmişə Allaha şükr edib yalnız Ona inanmalı, Rəbbinə heç bir şərik qoşmamalıdır!)»

**Allahı tanıma:**

İnsan Allahın sübutiyyə və səlbiyyə sifətlərini və Əsmayi-hüsnasını tanıdıqdan sonra dərk edir ki, O, hər şeydən mütləq ehtiyacsız, misli olmayan, naməhdud, yeganə, mütləq gözəl, nöqsansız kamil, bağışlayan və rəhman, insana özündən daha yaxın və ən yaxşı dostdur ki, bəxş edir, almır. İnsan bütün bunlardan agah olandan sonra Allahın əmr və nəhylərinə sözsüz təslim olur. Çünki bilir: O, elm və hikməti ilə boş və bihudə tapşırıq vermir və rəhməti xatirinə göstərişlərində insanın kamal və yaxşılığını nəzərə alır.

«İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona («Allahu əkbər» deməklə) təzim və şükr edəsiniz.»

İnsan bilməlidir ki, Allah cəhalət üzündən batil söz və ya xəyanət üzündən insana zülm olunmasını nəzərdə tutan söz deməz. Digər tərəfdən isə insan öz hərəkətlərini Ondan gizli saxlaya bilməz.

«(Loğman öyüd-nəsihətinə davam edərək) dedi: «Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), (hər şeydən) xəbərdardır!» Ayədən göründüyü kimi insan özünü Allahın əzabından uzaq saxlaya bilməz.

Üçüncü tərəfdən başqaları insanın ömrünü və sərmayələrini az miqdarda aldığı halda Allah-təala insanın əməllərini və insanın özünü alır və savab, əcr, mükafat kimi əbədi səadət və cənnətdə xalidliyi ona bəxş edir. «Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur (uğurdur)!»



Bu tanıma nəticəsində insan başa düşür ki, Onsuz xəsarətə düşər və Onunla xeyir gətirən ticarətlə məşğul ola bilər. Ağıllı insan yuxarıdakı mətləblərə diqqət yetirərək, artıq günaha düşmür və özünü Allahla ticarətə məşğul edir. Amma elə insanlar da var ki, Allahın əzəmətini tanımaqla ruhlarında Allaha eşq yaranır və həmin eşqlə, məhəbbətlə Allahın əmr və nəhylərinə əməl edirlər.

İmam Sadiq (ə) bu barədə belə buyurur: "İbadət edənlər üç qrupdan biridir:

1. Qorxudan Allaha ibadət edənlər - bəndələr.
2. Savab üçün Allaha ibadət edənlər - tacirlər.
3. Sevdikləri üçün Allaha ibadət edənlər - azadlar

Üçüncü ibadət hər ikisindən daha üstündür." Əgər insan qəbul etsə ki, Allah onu görür, o da Allahı tapmağa səy göstərər. Bunun nəticəsində onun bütün dərdləri müalicə olunar, həm də onun yolunda müvəffəqiyyət qazanmasına səbəb olar. Həzrət Rəsulu-Əkrəm (s) buyurur: «Ən üstün iman odur ki, biləsən harada olsan, Allah səninlə bir yerdədir.»

İlahi qorxudan məqsəd Allahın əzab qorxusudur ki, Qurani-Kərimdə oxuyuruq: «Onların tapındıqları tanrıların özlərindən hər hansı biri (Allah dərgahına) daha yaxın olsun deyə, Rəbbinə vəsilə axtarır, Onun rəhmətini umur, əzabından qorxur. Həqiqətən, Rəbbinin əzabı qorxuludur!»

Bəşəriyyətin Allahı öz imkanı həddində tanıması və bütün vəziyyətlərdə Allahın zikri mövzuları İslam dininin mahiyyət və əsasıdır ki, dinin bütün məsələləri bu bəhsə qayıdır.

Məhəmməd Baqir Saivər



# İSLAMDAN İMANA YETİŞİN

***Dinin əvvəli Allahı tanımaqdır. Müsəlman olan şəxsin mütləq Allaha ibtidai və əqli mərifəti vardır. Bu ümumi mənada olan islam kifayət deyildir, islamın ən xüsusi mənasına, yəni iman və qəlbi etiqad mərhələsinə çatmaq lazımdır. Qurani-kərim bu barədə buyurur: «Ey iman gətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün!» Bu ayədən məqsəd, həmin qəlbi imandır. Bu iman yaranmayana qədər insanın kamilliyi zühur etməyəcəkdir. Qəlbində Allaha mərifəti olub Ona tərəf yol tapa bilən adam kamala yetişəcəkdir.***

Allah «hucurat» surəsində buyurur: «Bir dəstə ərəb «Biz iman gətirdik»-dedilər. Ya Peyğəmbər! Onlara de ki: «Siz qəlbən iman gətirmədiniz!» Ancaq: «Biz islamı müəyyən şəxsi məqsəd, mənfəət naminə qəbul etdik-deyin. Hələ iman sizin qəlblərinizə daxil olmamışdır».

Bu ayədə bəzi ərəblər təzə müsəlman olmaqlarına baxmayaraq, iman gətirdiklərini iddia edirlər. Allah-təala onlara müraciətlə müsəlmanlıqlarının kamala çatmaqdan ötrü müqəddimədən başqa bir şey olmadığını qeyd edərək buyurur: Bəli, sizin müsəlmanlığınız əqli istidlal və icmali mərifətdən artıq bir şey deyildir. Siz ancaq müsəlman olmağın hökmünü yerinə yetirmisiniz. Çalışın qəlbinizdə iman yaradıb, kamala qovuşasınız. «Allahı tanımağın kamilliyi Onu təsdiq etməkdir». Qəlbinizdə olan bu iman Allahı təsdiq etməyinizə və Onun müqabilində müti və təvazökar olmağınıza səbəb olacaqdır. İnsan nə qədər ki, öz varlığını müstəqil hesab edir, heç vaxt Allahı dərk edə bilməz,

Bu səhv aradan qaldırılmayınca həqiqət aşkar olmayacaqdır. İnsan özünün mümkünəl-vücud olmasını, yəni öz varlığının mütləq vücuddan mütləq asılılığını dərk etməlidir. Varlığı eyni zat olan ancaq Vacibəl-vücuddur, yəni Allahdır. Allahdan başqa bütün məxluqlara nə qədər ki, varlıq əta olunmayıb, zati cəhətdən heçdirlər. Bu mənanı dərk etməyib hələ də özünü müstəqil bir varlıq hesab edən kəs necə Allahşünas ola bilər?

**Öz acizliyini yada salmaq xudbinliyin əlacıdır.**

Hicab və səhv düşüncələri aradan aparmaqdan ötrü nəfs ilə cihad etmək lazımdır. «Mən» kəlməsinin nə olduğunu başa düşmək üçün çoxlu zəhmət və məşəqqətlərə dözmək lazımdır. Mən nə öz ixtiyarımla dünyaya gəlmişəm və nə də öz iradəmlə dünyadan köçəcəyəm. Xeyir, ziyan, ölüm, həyat, qüdrət və zəiflik heç biri mənim ixtiyarımda deyil. Görəsən özümü həmişə cavan və sağlam saxlayıb, ölümün qarşısını ala bilərəmmi? Bu şeylər olmadığı halda insan öz acizliyi və zatının fəqirliyini dərk etməlidir.

«Ey insanlar! Siz Allaha möhtacsınız». Hər bir şey Allaha möhtacdır qüvvə, qüdrət, idrak və hər bir şeyin mənşəyi olan həyat Allahdandır. Mənəmlik hicabını aradan aparmaqdan ötrü mümkünəl-vücud olan insan öz zatının fəqirliyinə inanıb, ona çarə qılmalıdır.

**İstedad və çalışmaq səviyyəsində olan mərifət.**

Allahı tanımağın kamilliyi Onu təsdiq etməkdir. İman və təsdiqlə yaranan elm və yəqinin nəticəsi təvazökarlıq və müti olmaqdır. Bu hal insanda birdən-birə yaranmayıb, məhdud da deyildir. Allah-təala məhdud olmadığı kimi, Onu tanımaq da məhdud deyildir. Yəqinliyini gündən-günə artırmaqdan ötrü hər kəs Allah verən istedadı dərəcəsində çalışmalıdır.

Birinci nəfs ilə cihad edib, Allahdan ötrü aciz olmalıdır ki, elm mərtəbəsinə çata bilsin. Bu anda nəfsini çətinliyə, yəni öz meylinin əksinə alışdırmaqdan ötrü Allahın qayğısına da ehtiyac vardır. Elm məqamına çatan anda orada dayanmaq lazım deyildir. Çünki hicablar hələ də aradan getməyib, onların aradan getməsi hələ uzun çəkəcəkdir.

**Ən böyük hicablardan biri də elmdir.**

Bəzi dahilər deyiblər: «Elm ən böyük hicabdır». Elm bəzi vaxtlarda insan üçün hicab və maneəyə çevrilə bilər. Bu o vaxt baş verir ki, şəxs oxuduğu elmləri əzbərləyərək onlarla qürrələnir. Həmin elmlərə arxalanıb, hadisələrin həqiqətinə çatdığını zənn edir. İş o yerə çatır ki, Allah göstərməsin, özünü başqalarından üstün hesab edir.

Sözün qısası, nə qədər ki, ancaq özünü və elmini görür, qürur və səhv fikirlər hicabında qərq olur. Amma elmin «hicabi-əkbər» - ən böyük hicab olmasına gəldikdə isə mümkündür ki, şəxs başqa hicablara

diqqət edib onları aradan aparmaqdan ötrü çalışsın. Lakin elmin hicab olmasını görmək çox çətindir. İnsanı bu fəlakətdən qurtaran ancaq Allahın lütf qayğısıdır ki, bu məsələni ona dərk etdirib nicat verir.

Günahkar olan bəndə əgər günahı tərk etməyib tövbə etməsə və hicabda ola-ola onu aradan aparmaqdan ötrü çalışmasa, buna pis vəziyyət, pis hal və bədbəxtçilik deyilir.

Birincinin bu fəlakətdən xilas olub nicat tapmasına ümid vardır. Amma Allahın qayğısı olmasa ikincinin nicat tapmasına heç ümid yoxdur. Başqa ifadə ilə desək, birinci «Cəhli bəsit» (sadə cəhalət), ikinci isə «Cəhli mürəkkəb» (mürəkkəb cəhalət) adlanır. Elmin hicab olmamasını istəyən adam, elm öyrənməklə yanaşı nəfsini də paklamalıdır ki, kamala çatmaqdan ötrü elm ona kömək etsin.



**Qəlblə görmək və elmin çoxluğu.**

Kamala çatmaq istəyən şəxs «elmul-yəqin» dərəcəsindən «eynul-yəqin» mərtəbəsinə çatmalıdır. Bu mərhələyə başqa ifadəylə «qəlblə görmək» də deyirlər. Bu həddə çatan adam bununla kifayətlənməyib daha da yüksəyə qalxmalıdır. Elə bir yerə ucalmalıdır ki, Qurani-kərim bu barədə buyurur: «Allah öz istədiyini dərəcələrə yüksəldir. Hər bilik sahibinin fövqündə ondan üstün bir bilici də vardır!»

Allah-təala Qurani-kərimdə Peyğəmbərə (s) əmr edərək buyurur: Ey Peyğəmbərim! Məndən öz elminin çoxalmasını istə. «Cəbrail (ə) tərəfiindən sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və Pərvərdigara! Mənim elmimi artır! De».

**Sonrakı dərəcə haqqa çatmaqdır.**

«Həqqul-yəqin» mərtəbəsini elmi sözlərlə ifadə etmək olmaz. «Həqqul-yəqin» zehində həqiqətlərlə daha da yaxından tanış olmaqdır. Bu dərəcə hiss mərtəbəsindən yüksəkdir.

**Tüstünü görməkdən odda yanmağa qədər.**

Mühəqqiq Tusi (r) elmul-yəqin, eynul-yəqin və həqqul-yəqin mərifətinin dərəcələrini aydınlaşdırmaqdan ötrü belə bir misal çəkmişdir: Uzaqda müəyyən bir yerdən tüstü qalxdığını görən şəxs, orada nə isə bir şeyin yandığını bilir. Bu elmul-yəqin mərtəbəsidir. Sonra yaxınlaşıb həmin tüstünün həqiqətən də atəş olduğunu müşahidə edir. Bu eynul-yəqindir. Daha da yaxınlaşaraq atəşin istiliyini hiss edir, bədəni yanır və artıq bu Həqqul-yəqin mərtəbəsidir. Bizim nəzərimizə görə bundan yaxşı misal çəkmək olmaz. Hər şeydən zəruri şəxsin inkişaf etməkdən ötrü çalışması və nə qədər də yüksəyə ucalsa həmin yerdə dayanmamasıdır.

Elmə çatmağın çox əhəmiyyəti vardır. Qurani-kərim də öz növbəsində bu işə əmr etmişdir: «Bil ki, Allahdan başqa Allah yoxdur». Təkcə icmali və əqli mərifətə deyil, həqiqi elmə çatmaq lazımdır. Elə bir elmə ki, onda heç bir şəkk qalmayıb kamil xatircəmliyə səbəb olsun. Əgər yer üzündə Allahı tanıyan təkcə özü olsa belə, bu onun qəmlənməsinə deyil, həqiqi əmniyyətinə və qəlbinin kamil sakitliyinə səbəb olacaqdır. Elmul-yəqindən daha da yüksəklərə ucalıb, hal-hazırda özünü ruhani behiştlərdə görür. Bu məqamda məhbubu olan Allahı həmişə görüb artıq Onu dərk edir.

**Allaha yaxınlaşmaq aşiqlərin arzusudur.**

Kumeyl duasında oxuyuruq: «Ey mərifət əhlinin ən yüksək arzusu». Bəli, onların ən yüksək arzusu Allaha qovuşmaq və Ona yaxınlaşıb vüsala çatmaqdır».

İmam Zeynəl-abidin (ə) öz münacatlarının birində Allaha ərz edir: «Pərvərdigara! Mənim arzu və istəyim sənə həqiqi surətdə yaxınlaşıb, Sənə qovuşmağımdır. Sənin vüsalına qovuşmaq mənim arzum, Sənin dostluğuna eşq bəsləmək və Səninlə görüşmək mənim gözümün işığıdır. Ey mənim nemət və behiştim, ey mənim dünya və axirətim» Məlumdur ki, İmam Səccad (ə) Allaha yaxınlaşmağını zahiri gözlə deyil, qəlbin gözüylə arzu edir. Həqiqi yaxınlıq odur ki, «Siz harda olsanız, Allah da sizinlədir». İmamın istədiyi bu yaxınlığın etiqadi azğınlıq olan «hülul» və «İttihad»la heç bir rabitəsi yoxdur. Əksinə, bu anda Allahla insanın arasında olan bütün pərdələr aradan götürülür və o, dərk edir ki, özü və bütün adlar Allahın nişanələridir.

Bununla da onun qəlbində xatircəmlik yaranaraq Allahdan başqa bütün varlıqların qeyri müstəqil olduğunu və onların vücudlarının ancaq Allaha bağlı olduğunu başa düşür. «Allah göylərin və yerlərin nurudur». «Allahdan başqa heç bir tanrı yoxdur, əzəli və əbədi varlıq Odur». Bütün mövcudların varlığı Allahdandır. İlahi varlığa aid etdiyimiz sözlərin hamısı maddi aləmlə bağlı olan ifadələrdir, çünki bu kəlmələr hiss etdiyimiz şeylər haqqında yaranmışdır. Mücərrəd və mütləq varlıq barəsində məcazi mənada işlədilir. Bu yolda qədəm götürüb Allahı tanımaqda aləmlərin Rəbbi özü bizə kömək olsun!

Ayətullah Dəstiğeyb



# Quran oxumağın fəzilətləri

**Quran bəşəriyyətin dünya və axirət həyatının xoşbəxtliyini təmin edən əbədi ilahi qanundur. Onun ayələri hidayət, bəyan etdiyi hər bir ifadə isə rəhmət və səadət mənbəyidir.**

Hər kim bu iki dünyada xoşbəxt həyata nail olmaq istəsə, gecə və gündüz Quranla ünsiyyətdə olmalı və onu özündə yaşatmalıdır. Hər gün onunla öz əhd-peymanını təzələməli və əhdinə vəfadar olmalıdır. Quranla öz əlaqəsini daha da gücləndirən və onu öz hafizəsinə köçürən şəxslər, atdıqları böyük addımları Quranla atar və gördükləri bütün işləri Quranla yerinə yetirərlər.

Quran tilavətinin fəziləti barəsində onlarla hədis və rəvayət nəql olunmuşdur. Biz burada onlardan yalnız bir neçəsini təqdim edirik.

İmam Baqirdən (ə) nəql olunmuş hədisdə deyilir: Peyğəmbər (s) Quran tilavətinin fəziləti haqda buyurmuşdur: «Hər axşam on ayə Quran oxuyan şəxslər, qafil və Allahını unutmuş kəslərdən hesab olunmazlar, əlli ayə oxuyanların adı əməl dəftərinə daim Allahı yad edən şəxslər kimi yazılar, yüz ayə oxuyan ibadət edənlərdən, iki yüz ayə oxuyan qəlbən ibadətə qapılan və xalisanə bəndəlik edənlərdən, üç yüz ayə oxuyan səadətə nail olanlardan, beş yüz ayə oxuyan (məhşərdə) ibadətə tələsən və bu yolda qalmış kəslər kimi tanınarlar. Min ayə oxuyan kəslər isə, sanki Allah yolunda saysız-hesabsız qızıl-gümüş sədəqə vermiş olarlar.» (Üsuli-kafi, «Quranın fəziləti).

İmam Sadiq (ə)-dan nəql olunmuş hədisdə deyilir: «Quran bəşəriyyətin səadət və xoşbəxtliyini təmin edən həyat qanunudur. Bu qanun toplusu Allah tərəfindən tərtib olunmuş və ən mükəmməl şəkildə onların ixtiyarına qoyulmuşdur. Həqiqi müsəlman o kəsdir ki, bu həyat proqramına diqqət yetirməklə, hər gün ən azı əlli ayə oxumuş olsun.» (Üsuli-kafi, «Quranın fəziləti).

1. QURANIN ÜZÜNDƏN OXUNMASI

Nəql olunmuş hədislərin bir qismi, Quranın üzündən oxunmasının onun əzbər oxunmasından daha fəzilətli olduğuna dəlalət edir. Bu məzmunda nəql olunmuş rəvayətlərdən birində deyilir: İshaq ibni Əmmar imam Sadiqdən (ə) soruşur. Mən Quranı artıq hifz etmişəm (əzbərləmişəm), onu əzbər olaraq oxusam yaxşıdır, yoxsa üzündən? İmam (ə) buyurdu: «Üzündən oxu, bunun savabı daha çoxdur. Və bil ki, Quranın yazılarına baxmaq özü bir ibadətdir.»

İmam Sadiqdən (ə) nəql olunmuş başqa bir hədisdə deyilir: «Quranı üzündən oxuyan şəxslərin gözləri də Qurandan bəhrələnər. Ata-anasının günahları küfr ilə dünyadan köçsələr belə, azalar.»

Quranın üzündən oxunmasına müsəlmanların sövq etdirilməsinin bir neçə səbəb və sirri vardır.

1. Quran nüsxələri çoxalır və qədim nüsxələrin məhv olub aradan getməsinin qarşısı alınır. Əgər müsəlmanlar Quranı hifz edərək bu qayda ilə oxuyarlarsa, getdikcə Quran nüsxələrinə olan ehtiyac azalar və nəticədə Quran nadir nüsxələrdən birinə çevrilər.

2. Hədislərdə qeyd olunduğu kimi, Quranın üzündən oxunması insanın mənəviyyatına müsbət təsir göstərir. Eyni zamanda Quran yazılarına baxmaqdan ləzzət alır və bir çox hallarda göz ağrılarından amanda qalır.

3. Quranı üzündən oxumaq, oxucunun Qurana daha çox diqqət yetirməsinə səbəb olur. Belə olduqda, insan Quranın açılmayan sirr və incəlikləri barəsində daha çox araşdırmalar aparır. Belə ki, insan ürək açan mənzərəyə diqqətlə baxdıqda ruhən arxayınlaşır və özündə mənəvi rahatlıq hiss edir.

Quran ayələrinə nəzər salaraq onun dərin mənalarını dərk etməyə çalışan oxucu, ondan vəsfolunmaz ləzzətlər alır. Nəticədə qəlbi nurlanır və mənəvi paklığa nail olur.

2. QURANIN EVLƏRDƏ OXUNMASI

Bu məzmunda da bir neçə hədis və rəvayət nəql olunmuşdur. Hədislərin məzmununa diqqət yetirdikdə, müsəlmanların evlərdə Quran tilavət etmələrinə sövq olunmalarının bir neçə səbəbinin və onun bir neçə müsbət təsirinin şahidi oluruq.

1. Quranın evlərdə tilavət olunması, haqq kəlməsinin (islam hökmləri və əxlaq normalarının) ev sakinləri tərəfindən dinlənərək qəbul olunmasına səbəb olur. Belə ki, ev sahibi vaxtaşırı Quran oxuyarsa, digər ev sakinləri də onun təsiri altına düşərək bu gözəl adətə meyl edər və nəticədə Quran oxuyan şəxslərin sayı birə on artar. Əgər müsəlmanlar Quran tilavət etmək üçün müəyyən zaman və yer təyin edərlərsə, təbiidir ki, hamının eyni zamanda həmin yerdə Quran oxuması mümkün olmayacaqdır. Bu səbəbdən də Quranın evlərdə oxunması islam hökmlərinin hamı tərəfindən rəğbətlə qəbul olunmasına səbəb olur.

2. Evlərdə Quran oxunarsa, səhər-axşam oradan Quran səsi ucalar və onu dinləyən şəxslərin qəlbləri bununla təskinlik tapar.

3. Quranın evlərdə oxunması, həmən evin daha da bərəkətli olmasına səbəb olur. Mələklər bu evlərə nazil olar, şeytanlar isə qorxuya düşərək oradan uzaq olmaq istəyərlər. Ulduzlar yer üzünü işıqlandırdıqları kimi, Quran oxunan evlər də səma əhlinə nur saçar. Quran oxunmayan evlərdə bərəkət olmaz, mələklər bu evlərə gəlməkdən çəkinər və oralar şeytanların daimi gediş-gəliş yerinə çevrilər. (Üsuli-kafi, 2-ci cild. «Quranın oxunma fəziləti).

# QURAN oxumağın qaydaları



Qurani-kərimi oxumaq dinimizdə ən böyük savablardan və ibadətlərdən biri sayılır. Bir gün Peyğəmbər buyurdu: “Ürəklər də dəmir kimi paslanır”. Səhabələr soruşdular: “Bəs qəlbin pasını nə ilə təmizləmək olar?” Peyğəmbər buyurdu: “Quran oxumaqla”.

Yenə Həzrət Mühəmməd Peyğəmbərin (s) hədislərinin birində buyurulur ki, gözünüzün haqqını verin. Soruşdular ki, gözün haqqı nədir? Buyurdu: “Quran oxumaq”. Quran oxuyan insanın əxlaqı gözəlləşər (əgər oxuduqlarını həyata tətbiq edərsə), sağlamlığı möhkəmlənər, gözü itiləşər, həm Allahın, həm də insanların yanında hörmət-izzət qazanar. Quran oxunan evin ruzi-bərəkəti bol olar. Peyğəmbər buyururdu ki, evinizi Quran qiraəti ilə nurlandırın; içində Quran oxunan evin bərəkəti çoxalar, ev əhlinin nemətləri aşıb-daşar.

Qurani-kərimi oxumağa başlamazdan əvvəl bəzi şərtlərə riayət etmək lazımdır. Əvvəla, Quran oxuyan adamın cənabətdən pak olması məsləhətdir; boynunda qüsl olan şəxsin Quran oxuması məkruhdur (bəyənilməzdir). Amma Quranda vacib səcdə edilməsi lazım olan ayələrin yer aldığı dörd surəni oxumaq cənabətli şəxsə qəti surətdə haramdır. Bunlar Səcdə (32-ci), Fussilət (41-ci), Nəcm (53-cü) və Ələq (96-cı) surələridir; bu surələrin istənilən ayəsini oxumaq günahdır. Amma Quranın bunlardan savayı ayələrinin 7-dən çoxunu oxumaq cünüb şəxsə məkruhdur.

Qurani-kərimin yazısına qüslsüz və dəstəmazsız toxunmaq günahdır. Ümumilikdə Qurani-kərimin cildinə, vərəqlərinə, sətirlər arasındakı yerə qüslsüz və dəstəmazsız əl vurmaq məkruh (bəyənilməz) sayılır.

Quran tilavətindən qabaq ağzı yumaq və dişləri misvakla təmizləmək də bəyənilir. Peyğəmbər tövsiyə edirdi ki, Quranın yollarını pak edin. Soruşdular: “Quranın yolları nədir?” Həzrət cavab verdi: “Ağız”. Yenə soruşdular: “Ağzımızı nə ilə təmizləyək?” Peyğəmbər buyurdu: “Misvakla”.

Qurani-kərimi oxuyarkən sakit bir yerə, diqqətin yayınmadığı bir mühitə çəkilmək, yerdə üzü qibləyə oturmaq, Qurani-kərimi dizdən yuxarı müstəvidə qoymaq məsləhətdir. Müqəddəs Kitabı rəhilin üzərinə qoyub oxumaq daha yaxşıdır. Yeri gəlmişkən qeyd edək ki, Quranı gəzdirərkən də beldən yuxarı səviyyədə tutmaq müstəhəb sayılıb.

Quranın qiraətinə salavatla başlamaq, sonra şeytanın şərrindən Allaha sığınmaq, yəni bu sözləri söyləmək müstəhəbdir: “Əuzu billahi minəş-şeytanir-rəcim”. (Qovulmuş şeytandan Allaha sığınıram). Bundan sonra da “Bismillahir-Rəhmanir-Rəhim” deyib tilavətə başlamaq lazımdır. Hər surəni oxuyub qurtarandan sonra, eləcə də Quran oxunuşunu bitirəndən sonra “Sədəqallahul-Əliyyul-Əzim” deyilir (Uca və əzəmətli Allah doğru buyurub). Quranı xətm edəndən (tam oxuyub bitirəndən) sonra oxunması müstəhəb olan dualar var ki, bunları ya müvafiq dua kitablarından, ya da Quranın ərəbcə bəzi nəşrlərinin son səhifəsindən əldə edə bilərsiniz.

Quranı gözəl səslə oxumaq çox bəyənilir. Hədisdə buyurulduğu kimi, hər şeyin bəzəyi var, Quranın bəzəyi də gözəl səsdir. Bu zaman hərfləri düzgün tələffüz etməyə çalışmaq, harada durub nəfəs almağı bilmək, sətirlərin yuxarı qismindəki təcvid işarələrinə riayət etmək lazımdır. Quranı məlum və məşhur qiraət avazlarından biri ilə oxumaq müstəhəbdir. Quran qiraətini musiqiyə çevirmək, yersiz zəngulələr vurmaq günahdır. Quranı düzgün oxuya bilmək üçün təcvid elmindən xəbərdar olmaq lazımdır. Qurani-kərimin vacib səcdə ayələrinə çatanda səcdə etmək lazımdır.

Qurani-kərimi oxuyarkən tələsmək bəyənilmir. Hətta Peyğəmbər zamanında bəzi səhabələr çox qısa müddət ərzində Quranı oxuyub bitirdiklərini söyləyəndə, o həzrət etiraz edir və həmin adamları tələsməməyə, oxuduqları barədə düşünməyə çağırırdı. Ayələri tilavət edərkən mənalarını düşünmək, Quranı “yaşamaq” böyük savaba malikdir. İnsan Quran oxuyarkən ruhunu buna uyğun kökləməyi bacarmalıdır. Yəni Allahın mükafatlarından bəhs edən ayələri oxuyanda gərək bunlara görə şükr etsin və onları Allahdan istəsin. Cəhənnəm və əzab ayələrini oxuyanda öz günahlarını yada salsın, Allahın mərhəmətinə sığınsın, tövbə etsin. Keçmiş peyğəmbərlərin əhvalatını oxuyanda onlardan ibrət götürsün. Əxlaqi gözəlliklər barədə tövsiyələri əhatə edən ayələrlə qarşılaşanda, onları yadda saxlasın və gələcək həyatında bunlara riayət etməyə çalışsın və s.

Qurani-kərimi evdə oxumadan saxlamaq bəyənilməz işdir. Adam ərəb hərflərini bilirsə, mütəmadi olaraq Quranı açıb oxumalıdır. Əgər ailə üzvləri içində bunu bacaran yoxdursa, onda heç olmazsa Quranı hərdən-bir oxuya bilən adamlara verib oxutdurmaq lazımdır. Hədislərdə deyilir ki, evin bir küncündə istifadəsiz qalıb toz basmış Quran qiyamətdə öz sahibindən Allaha şikayət edəcək.

Burada yazılan şərtləri Qurani-kərimin tərcümə nüsxələrinə də tətbiq etmək müstəhəbdir. Ərəb əlifbasını bilməyən və Quranı orijinaldan oxumağı bacarmayan adam bunu öyrənməyə çalışmalıdır. Amma imkan yoxdursa, heç olmazsa, Quranın azərbaycan dilinə tərcüməsini oxuyub mənasını anlasa da savab qazanar.

Qurani-kərimin oxunuşunu dinləyən adam sakitliyə riayət etməli, Müqəddəs Kəlamın ehtiramını saxlamalı, ayələrin mənasını anlamağa çalışmalıdır.

İslam.az



# QURANI PULLA OXUMAQ: OLAR YA OLMAZ?

Qurani-kərim oxumaq üçün muzd almağın halal olub-olmaması barədə alimlərin fikirləri fərqlidir. Bir qrup alimlər (bunların əksəriyyəti əhli-sünnə məzhəbinə mənsubdur) bunu haram sayır və Allahın kəlamını müəyyən qiymətə satmaq kimi dəyərləndirirlər.

Həqiqətən, bəzi mənbələrdə Həzrət Mühəmməd Peyğəmbərin (s) dilindən elə hədislərə rast gəlirik ki, bunlarda Quran oxumağı qazanc mənbəyinə çevirənlər tənqid və məzəmmət edilirlər. Amma bunun müqabilində başqa bir qrup hədislər də var ki, bunlardan çıxış edərək bəzi şərtlər daxilində muzdla Quran oxumağın icazəli olduğu məlum olur. Alimlərin üstün və qüvvətli rəyi də buna uyğundur.

Əvvəla bunu deyək ki, Quran oxumaq və başqalarına bunu öyrətmək çox böyük savaba malikdir. Hər kəs imkan səviyyəsində bunu təmənnasız etsə, Allah tərəfindən mükafatsız qalmaz. Buna görə də başqa yerdən qazancı olan şəxsin təmənnasız olaraq Quran oxuyub möminlərin ruhuna hədiyyə etməsi və bu işi başqalarına da öyrətməsi gözəl olardı.

Ölü ilə bağlı bir neçə əməl var ki, onları icra etmək üçün pul alınmaz. Bunlara vacibi-kifayi deyilir. Bu əməllərin sayı üçdür: ölüyə İslam şəriətinə uyğun olaraq qüsl verib kəfənə tutmaq, cənazə namazını qılmaq  və dəfn etmək. Bir müsəlman ölüsü üçün bu işlər edilməyincə, bütün başqa müsəlmanlar bunda sorumlu və cavabdehdirlər. Amma əgər bu işləri bir və ya bir neçə nəfər icra etsə, o birilərin boynundan məsuliyyət götürülər. Diqqət edilməlidir ki, burada qüsl, kəfən və dəfn üçün lazım olan materialların pulu nəzərdə tutulmur; bunlara görə pul tələb etmək olar. Söhbət bu işə çəkilən zəhmətə görə istənilən muzddan gedir. Yəni bir kəs ölünü qüslləyib kəfənləmək, qəbrini qazıb dəfndən sonra üstünü örtmək və ona cənazə namazı qılmaq üçün zəhmət haqqı kimi pul istəsə, haramdır. Amma ölünün ruhuna Quran oxuyub hədiyyə etmək vacib yox, müstəhəb işdir. Ona görə də bunu muzdla etməyin maneçiliyi yoxdur. Əgər bunun üçün pul almağı haram bilsək, eyni məntiqlə gərək yas məclisində istifadə ediləsi ərzağı da pulla satmağı haram sayaq. Yəni təsəvvür edin ki, bir dükana girib satıcıdan tələb edirsən ki, atamın ehsan süfrəsinə təmənnasız ərzaq verməlisən. Bunların hər ikisini etmək vacib yox, müstəhəbdir; ölü sahibinin nə ölü üçün Quran oxutdurması, nə də ehsan verməsi şəriətdə vacib hökm kimi tələb edilmir. Əgər imkanı varsa, bunları edə bilər; imkanı və ya istəyi yoxdursa, məcbur edilə bilməz.

Məsələyə başqa cəhətdən yanaşsaq, məlumdur ki, insan öləndən sonra onun qəzaya getmiş namaz və oruclarını başqası yerinə yetirə bilər və bunun üçün ölü sahibindən muzd istəmək də caizdir. Əgər bir şəxsin sağ ikən boynunda olan vacib (fərz) ibadət o öləndən sonra başqası tərəfindən muzdla icra edilə bilirsə, müstəhəb bir əməl olan Quran oxumağı niyə başqası muzdla etməsin?

Daha bir məqam: mərhum şəxsin ruhuna hədiyyə olaraq Quran oxuyarkən həm sifarişçinin, həm də icraçının müəyyən bir əxlaq və insaf çərçivəsində davranmaları məsləhətdir. Yəni Quran oxuyan adam bunun üçün xüsusi bir məbləğ istədiyini dillə deməsə daha yaxşıdır. Nədənsə, demək olar ki həmişə ölü sahibinin Quran oxuyan adamdan gileyləndiyinin şahidi oluruq: “Quran oxumaq üçün molla filan qədər pul istədi. Heç insafı yox imiş. Mənim onsuz da xərcim başımdan aşır. Bir yandan da Quran oxutdurmaq üçün filan qədər pul verməliyəm”. Bu adamların vəziyyətini başa düşməmək mümkün deyil. Həqiqətən, bəzən istər yas mərasimlərini idarə etmək, istərsə də Quran oxumaq üçün mollalar insafdan artıq pul istəyirlər. Amma bəzən əks mənzərə də rastımıza çıxır. Bu sətirlərin müəllifi Quran oxuyanın üzüyumşaqlığından istifadə edib bütöv Quran xətmi üçün 30, hətta 20 manat pul verən adam da görüb. Çox-çox imkanlı şəxslər görmüşük ki, qəbristanlıqda və ya ziyarətgahda rastına çıxan mollaya bir manat pul verib Yasin oxumasını tələb ediblər. Yəqin razılaşarsınız ki, bu iş üçün çəkilən zəhmətin və sərf edilən vaxtın müqabilində həmin məbləğ həddindən azdır. Təsəvvür edin ki, Quranı qiraət qaydası və avazla oxuyub xətm edən adam başqa işlərini kənara qoymaqla, buna ən azı 5-6 gününü həsr etməlidir.

Daha bir məqama toxunmaq istərdim. Heç kimi məcbur edən yoxdur ki, ölüsü üçün başqasına muzdla Quran oxutdursun. Heç Allah da bunu tələb etmir və bu işi müstəhəb əməl kimi hər kəsin öz ixtiyarına buraxıb. Bahalıqdan şikayət edən və pulunu cibində saxlamaq istəyən adam özü zəhmət çəkib öz ölüsünün ruhuna Quran oxuya bilər. Əgər bunu bacarmırıqsa,

vaxtımızı və bacarığımızı ərəb əlifbasını öyrənmək əvəzinə başqa işlərə sərf etmişiksə, başqasından şikayət etməyə dəyməz. Biz öz vaxtımızı yüksək məvacibli firmalarda işə düzəlmək üçün ingilis dili və kompüter öyrənməyə sərf edəndə, "molla" dediyimiz adamlar (əlbəttə ki savadlı mollaları nəzərdə tuturam) ərəb dilini, təcvidi, şəriəti öyrəniblər. Və bu gün bizim onlara işimiz düşüb. Sabah da həmin molla bizim bacardığımız bir iş üçün qapımıza və ya iş yerimizə gələcək və bizə sifariş verəcək. Məsələn, bənnayamsa, mən onun evini tikəcəyəm; tacirəmsə, mən ona mal satacağam; dərziyəmsə, mən ona paltar biçəcəyəm və sairə və ilaxır. Və bu zaman zəhmətimə görə ondan muzd istəyəcəyəm. Elə isə, onun da öz zəhmətinə görə məndən muzd istəməyini təbii qəbul etməliyəm. Unutmayaq, ruhani və molla təbəqəsini yaradan biz özümüzük. Əgər şəriətdə deyilən kimi, özümüz atamızın cənazəsinə qüsl vermir və bunu başqasına etdiririksə, əlimizə bel götürüb anamızın cənazəsinə qəbir qazmır və bunu başqasına tapşırırıqsa, özümüz Quran oxumağı bacarmır və bunu başqasına sifariş veririksə, yas məclisimizi yola vermək üçün nə ailənin içində, nə də yaxın qohumda bir adam tapmır və bunun üçün molla çağırırıqsa, deməli, onun muzdunu da verməliyik. Etirazımız varsa, başqasının bizə müftə işləməsini tələb etməkdənsə, özümüz bu işləri görməyi öyrənək. Onda molla dediyimiz təbəqəyə də ehtiyac qalmaz.

Və nəhayət, Quranı o ölünün ruhuna oxutdurarlar ki, sağlığında bu kitabın heç olmazsa tərcüməsini vərəqləmiş olsun, bu kitabda yazılan əqidə, ehkam və əxlaq qaydalarının heç olmazsa, bir qisminə əməl etmiş olsun. Sağlığında Quranı tanımayan, ona hörmət qoymayan (hörmət deyəndə öpüb gözünün üstünə qoymağı yox, içində yazılanlara əməl etməyi nəzərdə tuturam) bir adamın ruhu üçün yüz dəfə Quran oxunsun – nə faydası var ki?

## DİLDƏ ALLAHI İNKAR EDƏNLƏRİN ÖZLƏRİ DƏ RUHƏN ALLAHA İMAN BAĞLAMIŞLAR.

Şübhəsiz, müvəffəqiyyət və qələbələr insanlarda (xüsusən çıxarı olmayan insanlarda) qürur və təkəbbür əmələ gətirir. Bu qürur insanın hər şeyi unutmasına səbəb olur. Hətta, iş o yerə çatır ki, insan öz fitrətində olanları da unudur. Lakin vəziyyət dəyişdikdə, çətinliklər insana üz verdikdə qürur pərdələri aradan qalxır, tövhid-Allaha pərəstiş nişanələri aşkar olur. Tarix bu cür nümunələrlə doludur. Aşağıdakı əhvalat bu nümunələrdən biridir.

Bir vəzir var idi. Bu vəzir çox qüdrətli idi. Heç kim onunla rəqabət apara bilmirdi. Bir gün həmin vəzir ruhani və dini alimlərin yığışdığı bir məclisə girib dedi: Siz nə vaxta qədər «bu dünyanın bir Allahı var» deyəcəksiniz? Mən onun yoxluğuna min dəlil gətirərəm.

Alimlər bilirdilər ki, bu vəzir bürhan, məntiq, dəlil və sübut əhli deyil və heç bir haqq sözü qəbul etmir. Buna görə də onun sözü qarşısında mənalı və təhqiredici bir sükuta daldılar.

Bu hadisədən bir müddət keçdi. Bir gün vəzir müttəhim olaraq o vaxtın iqtidarı tərəfindən tutulub zindana salındı. O vaxt həmin məclisdə olan alimlərdən biri özü-özünə dedi ki, o vəzirin oyanmaq (qəflət yuxusundan oyanmaq) vaxtı gəlib çatıb. Artıq onun təkəbbür və qürur pərdələri gözünün qarşısından çəkilib və haqqı qəbul etməyə hazırdır. Əgər onun yanına gedib nəsihət versəm, mütləq ona təsir edəcək. Fürsətdən istifadə edib zindana gəldi. Onunla görüşmək icazəsi alıb zindana girdi. Gördü ki, vəzir bir otaqda tək başına gəzərək fikir edir. Qulaq asıb gördü ki, dodağının altında bir şeir zümzümə edir. Diqqətlə qulaq asdıqda gördü ki, bu məzmunda şeir oxuyur:

«Biz hamımız şirik, lakin bayraq üstə çəkilmiş şir. Külək əsdikdə hücum etməyə başlayırıq. Hücum etmək istəyirik, lakin külək əsmir. Qurban olaq heç vaxt gözə görünməyən varlığa.»

Yəni, biz bayrağın üstə çəkilmiş şirə bənzəyirik. (Bəzi ölkələrin bayrağı üzərində bir şir şəkli vardır. Şerdə də buna işarə olunub). Külək əsdikdə hərəkətə gəlirik və elə bil ki, hücum etməyə hazırlaşırıq. Həqiqətdə isə bizi hərəkətə gətirən küləkdir. Bizim isə öz gücümüz yoxdur. Nə qədər hərəkətə gəlmək istəsək də, külək əsməzsə, yerimizdə qalacağıq. Bizi bu qüdrətə malik edən Allah hər bir zaman bu qüdrəti bizim əlimizdən ala bilər. Hamımızın canı ona fəda olsun.

Alim baxıb gördü ki, belə bir vəziyyətdə o nəinki təkcə Allahı qəbul edib, hətta bəlkə böyük arif və zahid şəxsə çevrilib.

Lakin buna baxmayaraq, vəzirin hal-əhvalını soruşduqdan sonra ona dedi:-Yadınızdadırsa, bir gün demişdiniz, Allahın olmamasına min bir dəlil və sübut gətirərəm. İndi mən gəlmişəm, sənin min dəlil və sübutunu bir sübutla rədd edim. Allah həmin varlıqdır ki, sənin o əzəmətli qüdrətini asanlıqla əlindən aldı. Vəzir utanaraq başını aşağı saldı, heç bir cavab vermədi. Çünki öz səhvini anlamışdı. Artıq öz batinində Allah və iman nuru hiss edirdi.

Quran (bu barədə) Firon haqqında belə buyurur: «Firon batacağı anda: «İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim» dedi» (Yunus, 90).

Ayətullah Məkarim Şirazi

# «BİSMİLLAH»IN KƏRAMƏTİ



**Alimlər bismillah ilə kəsilən heyvanla, bismillahsız kəsilən heyvan arasında fərqi incələmək üçün çalışaraq belə bir nəticəni əldə etdilər: «Bismillahla kəsilən heyvan ətlərində mikroba rast gəlinmir, bismillahsız kəsilən heyvanların ətlərində isə mikrob və bakteriyalar təsbit edilir.»**

Bu barədə Osman Üzsoyun yazısını sizə təqdim edirik: «Qurban kəsilməsi mövzusunda oxuduğum maraqlı bir araşdırmanın suallarını sizlərlə paylaşmaq üçün uzun zaman idi ki, gözləyirdim. Nəhayət o gün gəldi çatdı. İki gün sonra bayram olacaqdı. İmkanı olan müsəlmanlar cümə günü qurbanlarını kəsəcəkdilər. Mən isə sizə məni düşündürən həmin araşdırmadan danışacağam.

Müxtəlif universitetlərdə işləyən və tibbin müxtəlif sahələrində alimlik dərəcəsi alan 30 professordan ibarət bir araşdırma qrupu bismillahla kəsilən heyvan ətiylə, bismillahsız kəsilən heyvan ətinin arasında hər hansı bir fərqin olub-olmadığını ortaya qoymaq məqsədilə labaratoriya şəraitində araşdırma aparırlar.

**Bismillahın sirri**

Alimlər heyvanın kəsilməsi zamanı İslama əsasən deyilməsi zəruri olan «Bismillah, Allahu Əkbər» sözünün kəsilən ətlər üzərindəki hər hansı bir təsiri olub-olmadığını araşdıran zaman çox qəribə nəticə ilə qarşılaşırlar. Araşdırmanın metodu və texnologiyası barəsində məlumat verən Şam Universiteti Əczaçılıq fakultəsi dekanı, professor-doktor Nəbil Şərif, bismillahla kəsilən quş cinsi, heyvan, sığır və s. heyvanların ətlərindən və bismillahsız kəsilən eyni cins heyvanların ətlərindən ayrı-ayrı nümunələr götürərək şəxsi labaratoriyalarda uzun müddətli mikroskopik araşdırmalar apardıqlarını deyir. Nəticədə bismillah ilə kəsilən heyvan ətlərinin nümunələrinin açıq qırmızı gül rəngini aldığı, bismillahsız kəsilən ət nümunələrinin isə qaraya yaxın tünd qırmızı bir rəngə boyandığını görür.

**Heyrətamiz nəticə**

Professor Şərif ayrıca bismillahla kəsilən heyvan ətlərində hər hansı bir mikroba rast gəlmədiyini, bismillahsız kəsilən heyvan ətlərində isə sürətlə çoxalan böyük ölçüdə zərərli mikrob və bakteriyalar təsbit edildiyini deyir. Araşdırmada iştirak edən elm adamlarından Dr. Əbdülqadir Dirani deyir: «Quranda «Allahın adı zikr edilmədən kəsilən heyvan ətini yeməyin» şəklindəki ilahi əmrə rəğmən heyvan kəsimində bəzən bismillah sözünün ihmal edilməsi bizləri bu məsələni elmi şəkildə araşdırmağa sövq etdi. Bismillah və təkbir ilə heyvan kəsimi məsələsini araşdırmağa başlayarkən hər səhifədə heyrətamiz nəticələr ortaya çıxınca qrupun bu məsələyə olan marağı daha da artmağa başladı. Bismillah və təkbirlə kəsilən heyvan ətlərində, bismillahsız kəsilən heyvan ətlərinin əksinə olaraq bakteriya və mikrobların tapılmaması bismillahın böyük bir möcüzəsi olaraq qarşımıza çıxdı.» Araşdırmanı aparan qrup adından Küveyt Xəbər Agentliyinə açıqlama verən Prof. Dr. Xalid Halavə isə laboratoriya şəraitində aparılan sınaqlarda bismillahsız kəsilən sığır və quşların ətlərində laxtalanmış qan, çoxalmaya həssas bakteriya və mikroblar təsbit edilərkən, bismillah ilə kəsilən heyvan ətlərində bu kimi hallara rast gəlmədiyini ifadə etmişdir.

**Kəsilmə fərqi**

Eyni Universitetin başqa bir fakultəsinin Ət Sağlığı Bölümü professorlarından Fuad Nima deyir: «Dünyanın bir çox ölkəsində tətbiq edilən heyvanların məst edilərək və digər bu kimi yollarla öldürülməsi işləmi sırasında qanın vücudda qalmasına və bu cür ətlərin daha tez çürüməsinə və xarab olmasına səbəb olur. Halbuki kəsim zamanı çəkilən bismillah və təkbirin heyvana etdiyi təsir və həyəcanın, heyvan orqan və əzələlərində meydana gətirdiyi hərəkətin, qanın lazımi miqdarda xaricə axmasına yol açdığını və heyvanların daha az əziyyət çəkdiyini təsbit etdiyini göstərir.»

İnancımıza görə Allahın haram və ya halal buyurduqlarında mütləq bir hikmət axtarmaq lazım deyil. Ancaq insanların bu günə qədər apardığı təcrübələr Allahın əmr və nəhylərində bildiyimiz və bilmədiyimiz hikmətlərin olduğunu isbat edir. Elm inkişaf etdikcə Allahın bizlər üçün hazırladığı nemət və hikmətləri anlamaq daha da asanlaşır.»

İslam Həqiqətləri

# “HALAL” KOLBASA AXTARIŞINDA OLANLARA MƏSLƏHƏT





**Son günlərin aktual mövzularından biri də namaz qılanların ümidlərinin puç olmasına səbəb olan – halal adı ilə alıb yedikləri kolbasaların haram üsullarla hazırlanması xəbərləri oldu. Hətta üzərində “Qafqaz Müsəlmanları İdarəsi tərəfindən zəmanət verilir” yazılmış kolbasalarının tərkibindəki ətin 70%-i Hindistandan gətirilirmiş. Qeyd edək ki, QMİ sədri Allahşükür Paşazadə məlumatlara münasibət bildirərkən Azərbaycanda heç bir kolbasanın halal standartlara uyğun hazırlanmasına zəmanət vermədiyini rəsmən açıqladı.**

Oxucuları İslam dinində halal-haramların meyarı ilə tanış etmək üçün islam.az ilahiyyatçı Mirhəmid Məmmədova müraciət etdi.

**Halal ətdən hazırlanan hər şey halaldır**

Ət məhsullarının halal olması üçün müqəddəs İslam şəriəti bir neçə şərt qoyub ki, onlardan biri də heyvanın kəsilmə qaydalarıdır. Hər bir heyvan ətinin halal olması üçün onu:

- müsəlman kəsməli,
- üzü qibləyə kəsməli,
- kəsərkən “bismillah” deməlidir.
- şah damar kəsilməlidir və kəsdiyi heyvanın diri olduğundan əmin olmalıdır.

Belə olan təqdirdə kəsilmiş heyvanın əti pak olur. Ət halal olduqdan sonra ondan hazırlanan yemək növləri halal olur, o cümlədən də kolbasalar.

Müsəlman dünyasında ümumiyyətlə haram ət məhsulu demək olar ki, yoxdur; nə Türkiyə, nə İran, nə də ərəb dünyasında. Hətta belə bir sual da yoxdur ki, bu halaldır, yoxsa haram? Çünki, insanlar qədim zamanlardan bilirlər ki, heyvan necə kəsilməlidir .

Lakin bizdə isə insanların düşüncəsi bu cürdür ki, heyvan ət kombinatında və əl zəhməti olmadan xüsusi maşınla kəsilir. Bu da keçmiş sovetlər dönəminin əks-təbliğatının nəticəsidir.

Şəriət qaydalarına nəzər salsaq, burada müsəlmandan alınan hər bir şeyin pak və halal hesab edildiyini görərik. Amma müsəlmanın heyvanı qeyri-şəri qaydalarla kəsdiyini yəqin bildiyin təqdirdə, o heyvanın əti sənə halal ola bilməz.

**Ya 2 nəfər adil şəxs təsdiq etməlidi, ya da...**

- El arasında çox söhbətlər gəzir ki, bəs kolbasanın içinə donuz piyi vurmasan bu qədər çox vaxt qala bilməz...

- Mən bu işin mütəxəssisi olmadığım üçün bu barədə tam məlumatım və bunun nə qədər doğru olub-olmadığına yəqinim yoxdur. Əlbəttə, bu qədər söz-söhbətlərdən sonra kolbasanın halal olmasına çox da etibar etmək olmur. Çünki yəqin əldə etmək üçün ya 2 nəfər adil şəxs kəsilən heyvanın şəri qaydalar əsasında kəsildiyini və ətinin pak olmasını deməlidir, ya da insan özü gedib yaxından maraqlansın və yəqinə çatsın ki, ət məmulatı pak və halaldır.

**İstehsalçılar o qədər saxtakarlıqlara yol veriblər ki, onların «Halal» sözlərinə inam qalmayıb**

- Şəri məsələlərdən anlayışı olmayan namaz qılan şəxs kolbasa məhsulunun halal və ya haram olmasında şəkk edirsə və araşdırmağa da imkanı yoxdursa necə?

- Əslində bir müsəlmanın əlindən alınan hər hansı bir şey pak sayılır. İnsanları çaşdıran söz-söhbətlərdir. Bu da elə-belə deyil. İstehsalçılar tərəfindən müşahidə olunan yalanlar, saxta əməllər, at və ya eşşək ətinin inək əti adıyla satılması halları bu cür söz-söhbətlərin yaranmasına və insanların şəkkə düşmələrinə səbəb olur. Kolbasanın istehsalındakı bəzi saxtakarlıqlar şəri qanunların işləməsinin qarşısını alır. Əslində belə olmamalıdır, müsəlmandan aldığın hər bir şey pak hesab edilməlidir. Lakin insanlar “Halal” adı altında haram mal satanlara baxıb, həqiqətən halal olan məmulatları da haram hesab edirlər. Qeyd edim ki, bu qanun ümumi qəbul edilə bilməz, bu məsələdə hər kim nəyə yəqin edirsə, ona əməl etməlidir.

**Onların qazancının heç vaxt bərəkəti olmayacaq**

- İnsanlara “Halal” ad altında haram kolbasa satanların şəri və əxlaqı zərərləri nədir?

- Bu cür insanları şeytan aldadır, nəfslərinə qul olurlar və öz şeytani istəklərinə boyun əyərək saxta yollarla tez varlanmaq istəyirlər. Bu cür insanlar haram yollarla uğur qazanmaq istəyirlər. Əslində belə deyil. Haram yollarla, insanları aldatmaqla, yalanlarla etdiyi alveri batil olur. Onlar yəqin bilsinlər ki, bunların heç bir zaman bərəkəti ola bilməz. Çünki, hər hansı murdar bir şeyi müsəlmanlara satmaq böyük günahlardan biridir, müsəlmanı aldadaraq nəyisə ona sırıması da böyük günahlardandır. Bu işi görənlər bu yollarla əldə etdikləri qazancın sahibi olmurlar. Nəticədə də Allah belə insanlardan öz bərəkətini götürür.

**Yəqini olsa ki, halaldır, yeyə bilər**

- “Halal” kolbasa axtarışında olanlara məsləhətiniz nədir?

- Son olaraq qeyd etmək istəyirəm ki, hər hansı bir şəxsə fərdi yollarla satılan kolbasaların halal olması məlum olarsa, o, bu yəqini əsasında bu məhsuldan istifadə edə bilər. Bu şəri qaydalara uyğundur. Lakin ümumilikdə bu gün bütün halal olduğu iddia edilən kolbasaların halal olduğunu qəbul etməyimiz də qorxuludur. Çünki, hətta biz gedib belə bir yerləri yoxlasaq və kolbasanın hazırlanmasına nəzarət etsək və bu zaman şəri qanunlara riayət edildiyini görsək belə, biz oradan ayrılandan sonra nə olacağını bilmərik.




# Həzrət Məhəmməd Ailəsinin «İncil»i (SƏHİFEYİ-SƏCCADİYYƏ)

**İmam Əli ibn Hüseynin (İmam Səccadın) həyatı**

Qurani-kərimdən sonra həzrət Əlinin (ə) "Nəhcül-Bəlağə"si və o həzrətin nəvəsi İmam Səccadın (ə) dualar məcmusu olan "Səhifeyi-Səccadiyyə" mənəvi irsimizdə özünəməxsus yer tutur.

Öncə İmam Səccadın (ə) həyatı haqqında qısa məlumat vermək, daha sonra isə mövzumuz olan "Səhifeyi-Səccadiyyə" ilə bağlı məlumatları açıqlamaq yerinə düşərdi.

Dördüncü imamımızın adı Əli, məşhur ləqəbləri isə Zeynəlabidin (ibadət edənlərin zinəti) və Səccaddır (çox səcdə edən). Onun atası üçüncü imamımız həzrət Hüseyn (ə), anası isə hz. Şəhrabanu olmuşdur.

Həzrət Zeynəlabidin (ə) h.q. tarixi ilə 38-ci ildə Mədinə şəhərində dünyaya göz açmışdır. İmam iki yaşında ikən babası Əmirəl-möminin həzrət Əli (ə) şəhid olmuşdur. Ondan sonra o həzrət on il də əmisi İmam Həsənin (ə) dövründə yaşamış, İmam Həsən (ə) şəhid olandan sonra imamlıq atası İmam Hüseynə (ə) çatmışdır. O həzrət on il də atasının imamlığı dövründə yaşamışdır.

İmam Səccad (ə) atası ilə birgə Kərbəla hadisəsində də iştirak etmişdir. Bu zaman həzrətin 22-23 yaşı var idi. Amma ilahi məsləhətə görə çox şiddətli xəstəliyə düçar olur, buna görə də döyüşdə iştirak edə bilməyir.

İmam Zeynəlabidin (ə) atası şəhid olandan sonra imamlığa yetişmişdir. O, Kərbəla əsirlərinə başçılıq edərək Kufə və Şamda Əhli-beytin (ə) haqq olmasını insanlara çatdırmaq üçün xütbələr söyləmişdir.

İmam Zeynəlabidin (ə) qorxulu və dəhşətli bir dövrdə yaşamışdır. O həzrət zülmkar Əməvi xəlifələri olan Yezid ibn Müaviyyə, Mərvan ibn Həkəm, Əbdül-Məlik ibn Mərvan və Vəlid ibn Əbdül-Məlik kimi zalımların zamanında tərəfdarlarının rəhbərliyini öz öhdəsinə götürmüşdür.

**"Səhifeyi-Səccadiyyə" ilə ümumi tanışlıq**

İmam (ə) zalım hökumət tərəfindən nəzarətdə olduğuna görə İslam maarifini və Əhli-beytin haqq olmasını camaata dualar şəklində çatdırmışdır.

İmamın söylədiyi bu dualar kitab şəklində



toplanaraq «Səhifeyi-Səccadiyyə» adı ilə məşhurlaşmışdır.

Adından göründüyü kimi, o həzrətin ləqəbinə uyğun olaraq bu ünvan "Səccadın (ə) səhifəsi", yaxud kitabı mənasındadır.

Bu dualar kitabı öz fəsahət, bəlağət, gözəl söz düzümünə, habelə kəlamlarının cəlbedici olmasına görə böyük alimlər tərəfindən "Əhli-Beytin İncili" və "Ali-Məhəmmədin Zəburu" adlarını qazanmışdır.

Əhli-sünnət alimlərinin böyük müftisi olan Şeyx Təntavi Cövhəri, (Misir alimlərindən olub, "Cəvahir" adlı təfsirin müəllifidir) bu kitab haqqında belə deyir:

«Bu bir bədbəxtlikdir ki, bizim məzhəb indiyə kimi bu peyğəmbərlik irsindən qəflətdə olmuşuq. Mən bu kitaba baxdıqca bu sözlərin Xaliq kəlamından aşağı, məxluq kəlamından üstün olduğunu görürəm».

Belə bir dəyərli və möcüzəvi kəlamlara malik bu kitab onu insafla nəzərdən keçirən bütün şəxsləri heyran qoymuşdur.

**"Səhifeyi-Səccadiyyə" nin sənədi**

"Səhifeyi-Səccadiyyə"nin duaları iki sənədlə bizə gəlib çatmışdır. Birinci sənəd İmam Zeynəlabidindən (ə) oğlu İmam Baqirə (ə) və ondan İmam Cəfər Sadiqə (ə), ikinci sənədi isə İmam Zeynəlabidindən oğlu Zeydə və ondan isə öz oğlu Yəhyaya çatmışdır.

**"Səhifeyi-Səccadiyyə"nin təhlili**

Bu dualar məcmusu 54 duadan ibarət olaraq Allaha həmd və sitayiş, Məhəmməd peyğəmbərə (s) və onun ailəsinə (ə) salavat, Peyğəmbərin dostlarına salam demək, zülmkarlardan şikayətlənmək və

düşmənlərin hiyləsinin uzaqlaşdırılmasını istəmək, ata-ana, övladlar və qonşular üçün dua etmək, günahların bağışlanması və bəlaların aradan qaldırılması, İslam əsgərlərinə və xəstələrə dua etmək, ruzi və yağış istəmək və bu kimi duaları ehtiva etmişdir.

İmam Zeynəlabidin (ə) bu duaların içində müxtəlif mövzulara o cümlədən dini və əqidəvi, ictimai- siyasi, təlim-tərbiyə və elmi məsələlərə də toxunmuşdur.

Dini və əqidəvi məsələlərdə dinin əsaslarından olan tövhid, ədalət, peyğəmbərlik, imamlıq və məad-qayıdış əsaslarına toxunmuşdur. Məsələn buyurur:

«Ey yeri və göyləri yaradan böyük Tanrım! Şükür və həmd Sənə məxsusdur. İlahi! Məni tövhid əhlindən və rəsulunu, dini rəhbərləri təsdiq edənlərdən et! Bilirəm ki, hökmün və əmrində heç bir zülm yoxdur» (Dua: 47-48).

Yaxud həzrət məad-diriliş günü haqqında belə buyurur:

«İlahi qiyamət günü mənə rahatlıq və aramlıq bəxş et! (Dua: 20).

Habelə, dini və fiqhi hökmlər olan dinin şaxələri-füruiddin (namaz, oruc və zəkat və s.) haqqında belə buyurur:

«Həmd və şükürlər o böyük Allaha olsun ki, Ramazan və orucluq ayını bizə ehsan olaraq bəxş etmiş, bu ayda yemək-içməyi bizə haram etmişdir. İlahi! Dua və rəhmət göndər Məhəmmədə (s) və onun ailəsinə və bizi beş vaxtda namaz qılmağa müvəffəq et! Bizi bu ayda mal və sərvətimizin zəkat verməklə paklanmağına müvəffəq et” (Dua: 44).

Həcc haqda: «İlahi! mənim qalan ömrümü Həcc mərasimini yerinə yetirməklə (sona çatdır) və (məni) Sənin razılığını, savabını əldə edənlərdən et!” (Dua: 47)

Cihad haqda: «İlahi! Öz izzətinə xatir müsəlmanların sərhədlərini möhkəmlət və sərhəd gözətçilərini öz qüdrətinlə gücləndir» (Dua: 27).

Yaxşılığa əmr və pislikdən çəkindirmə haqda: «İlahi! Bizləri yaxşı iş görmək və pis işlərdən uzaqlaşmağa, yaxşılığa dəvət və pislikdən çəkindirmə əməlində müvəffəq et» (Dua: 6).

İlk dəfə suda mikrob haqqında danışan “Səhifeyi-Səccadiyyə” olmuşdur.

Avropanın böyük alimi olan kimyaçı Lui Pastor (1822-1895) ilk dəfə suda mikrobun kəşf olunması nəzəriyyəsini vermişdir. O bunu İmam Zeynəlabidinin (ə) “Səhifeyi-Səccadiyyə”sindən əldə etdiyini bildirmişdir.

Bu sirr 27-ci duanın 13-cü cümləsində qeyd olunmuşdur. İmam bu duada İslam sərhədçilərinə dua edir və İslam düşmənlərinə, müşriklərə belə qarğış edir: «Əllahummə vəmzuc miyahəhum bil-vəba, ət`imətəhum bil ədva»; yəni, «İlahi! Onların (İslam düşmənlərinin) sularına vəba qarışdır və yeməklərini xəstəliyə çevir».

İmam (ə) bu duada incə bir elmi nöqtəyə işarə edərək suyun tərkibində mikrobun olmasını bildirmişdir.

**“Səhifeyi-Səccadiyyə”yə yazılan şərhlər**

Böyük alimlər tərəfindən “Səhifeyi-Səccadiyyə” kitabına çoxlu şərhlər yazılmış və müxtəlif dillərə tərcümə edilmişdir. O cümlədən, böyük alimimiz Şeyx Bəhai (h.q. tarixi ilə 953-1030) bu əsərin təkcə “Hilal duası”na geniş bir şərh yazaraq onu «Hədiqətul-hilaliyyə» , yaxud “Şərhu duai hilal min səhifətis-səccadiyyə» adlandırmışdır.

Yaxşı olardı ki, bu duadan (“Hilal duası”ndan) bir neçə cümləni nəzərinizə çatdıraq:

İmam ayı görəndə belə dua edir:

«Allahdan istəyirəm ki, səni bizim üçün bərəkət ayı etsin! Bizləri bu ayda bəlalardan və pisliklərdən qoruyub bizə əmin-amanlıq bəxş etsin! Allahım! Bu ay xeyirli olsun, şərr aylardan olmasın!

İlahi! Bizi bu ayda tövbə və Sənin nemətlərinə şükür edənlərdən et! Ey Tanrım! Bizə bu ayda günah etməməyə yardımçı ol!”

Bu şərhdən əlavə Seyid Əli Kəbirxan «Riyazüs-salikin», Zeynəlabidin Qəhlayi «Riyazül-abidin» və Şeyx Məhəmməd Cavad Müğniyə «Fi zilalis-səhifətis-səccadiyyə» adlı şərh və izahlarını yazmışlar.

Allahdan istəyirik, bizi dini irsimizə sahib çıxanlardan və onu layiqincə yaşadanlardan etsin.

Allah bizi Quran və Əhli-beyt (ə) maarifini doğru yoldan əldə edib, doğru şəkildə əməl edib, eləcə də doğru üsullarla digərlərinə çatdıranlardan etsin!

Elşən HƏMİD

# Azərbaycan miniatür əlyazma sənəti

Müsəlman incəsənəti optik təsvirlərdən və perspektiva anlayışından imtina edərək tamamilə fərqli təsviri sənət nümunələrinin yaranmasına imza atdı. Şərq incəsənəti qərbdən fərqli olaraq qeyri-



reallıqlardan imtina etdi, yanlış olan, həqiqi olmayan görüntüləri əks etmək istəmədi. (məsələn: əşyaların kiçildilməsi və s.). Müsəlman rəssamları reallığı təsvir edirdi. Miniatür sənəti nümunələrində primitiv düşüncə əks olunsa da, təsvirlər dəqiq planlara bölünürdü. Süjetlər spiralvari kompozisiya boyunca düzülürdü və məkan təsəvvürü bu cür yaradılırdı. Miniatürlərdə cisimlərin kölgəsi verilmirdi.

Çünki təsvir olunan canlı əşyanın özü deyil, bir növ onun «işarəsi» idi. Rəssamlar mətnlə təsvirin sintezinə xüsusi önəm verirdilər. XII-XIII əsrlərdə miniatürləri əvvəl xəttat yazır, müəyyən yerləri boş saxlayırdı ki, təsvir oraya çəkilsin. Rəssam məcbur olurdu ki, qoyulmuş dar çərçivədə şəkili yerləşdirsin. Sonradan vəziyyət dəyişdi. Əgər əvvəl təsvir mətnə tabe idisə, XIV-XV əsrlərdən sonra illüstrasiya (şəkil) mətndən ayrılır, şəkillər böyüməyə başlayır.

Ümumiyyətlə Azərbaycan miniatürlərində iki fərqli üslub görmək olar:

1) Ərəb-Mesopatam üslubu (dekorativlik, rəng əsas idi);

2) Çin-Uyğur üslubu (xətlər, rəsm önəmli idi).

Azərbaycan miniatür sənətində hər iki üslub paralel inkişaf edirdi. XV əsrdən başlayaraq iki üslubun sintezi və yerli üslubun qarışığı meydana çıxır. Bu yeni üslub Təbriz üslubu, yaxud Səfəvi üslubu idi. XVI əsrin 30-40-cı illərindən paytaxt Qəzvinə, daha sonra isə İsfahana köçürüldü. Nəticədə miniatürlər farslaşdı, yəni təsvirlərdə farsyönlü həyat tərzi əks olunmağa başlandı.

Miniatürlərdə bəzədilən əlyazma kitabları orta əsr ustalarının böyük bir kollektivinin əməyi tərəfindən yaradılırdı. Əlyazma üçün nəzərdə tutulan kağızı xüsusi emal edir, hamarlayır, hərdən isə rəngləyirdilər. Sonra əlyazma mətni köçürürdülər. Müqəddəs Quran kitabının yazıldığı ərəb əlifbası İlahi başlanğıc hesab olunurdu. Ona görə də Yaxın və Orta Şərqdə kalliqrafiya sənəti xüsusi hörmətə malik idi. Ancaq nəinki dini hisslər, həm də yazının bədii keyfiyyətləri də kalliqrafiyanı (xəttatlıq sənəti) orta əsr incəsənətinin ən yüksək növünə çevrilir.





VII əsrdə yaranan ilk yazı kufi xətti idi (düzxətli və bucaqlı yazı). Məlum olduğu kimi ərəb xilafəti dövründə Alban və Pəhləvi əlifbaları Azərbaycanda qadağan olundu: rəsmi olaraq ərəb kufi xətti istifadə olunmağa başlandı. Kufi xəttinin adı Kufə şəhərinin adı ilə bağlıdır ki, bu şəhər Bağdaddan 150 km cənubda yerləşir. Kalliqraflar haqqında qədim traktatlara əsasən, bu xəttin banisi İmam Əlidir (ə). Sonradan isə daha 6 xətt (sittə) yaranır.

Ərəb əlifbasının hərfləri özünəməxsus təsvir qanunlarına malikdir. Burada əsas yer xəttin gözəlliyinə, xətt və formaların harmoniyasına verilir. Demək olar ki, dünyanın heç bir yerində yazı bu cür estetik mənaya malik deyil. Hərflərin təsvirində işlənmə mexanizmi xüsusi istedad tələb edir və illər boyunca əldə olunur. Yazının tezliyi yox, onun işlənməsində bədii keyfiyyətlər əsas sayılır. Xəttatlığa incəsənət növü kimi etik məna da şamil edilir: «Təmiz yazı» - «təmiz qəlbin» təcəssümü hesab olunur. Kitab tərtibatında kalliqrafiyanın önəmli rolunu ondan bilmək olur ki, xəttatın adı rəssamın adından daha tez-tez əlyazma üzərində rast gəlinir.

Rəssam-miniatürçüdən başqa, kitabın tərtibatında ornamentalist, qızıl ustası işləyirdi. Bədii tərtibatı cildçi bitirirdi. O, kitabı naxışlı dəri və ya bərk laklı rəsmləri olan cildə «geyindirirdi». Ümumilikdə əlyazması bir neçə müxtəlif incəsənət növünün sintezi nəticəsində yaranmış bədii əsər sayılırdı. Kitabın bədii obrazı üçün həm cildin dekorativ keyfiyyətləri, həm yazının gözəl qrafikası, həm ornamentlərin əlvanlığı, həm də miniatürlərin rəngarəng ləkə oyunu böyük mənaya malik idi. Bütün bunlar kitabın bədii-ədəbi mövzusuna, onun poetik məzmununa harmonik tabe olurdu. Sonradan isə kitabla bağlı olmayan incəsənət növü – ayrıca listlərdə miniatürlər yaranmağa başlayır.

Azərbaycan miniatür sənəti tarixində adını qızıl hərflərlə yazdırmış gözəl sənətkarlarımız olub. Rəssam Sultan Muhəmməd Təbrizi və onun məktəbinin nümayəndələri ilə yanaşı (Mirzə Əli, Muhəmmədi və b.), xəttat Mübarəkşah Zərrinqələm (sittə ustası), Əbdullah Seyrafi Təbrizi (xəttat), Muhəmməd Əli (cildçi-Nəvainin «Külliyyatı»nı cildləyib), Şərəfuddin Hüseyn Sultani (xəttat) və başqaları onlara misal ola bilər. (Qeyd: yuxarıdakı təsvir orta əsr miniatür ustası Sultan Muhəmməd Təbriziyə məxsusdur. 1539-43)

Hazırlayan: Sənətşünas Nigar Quliyeva





# Ruzi qazanmaq ibadətdir

***İslam dinində ibadət sayılan mövzulardan biri də ruzi dalınca gedib halal ruzi qazanmaqdır. Bu niyyətlə ki, öz ehtiyacına görə başqalarına əl açmasın. Qurani-Kərimdə bu barədə belə buyurulur: «(Cümə) namazını qılıb qurtardıqdan sonra yer üzünə dağılıb Allahın kərəmindən ruzi diləyin! Və Allahı çox zikr edin ki, bəlkə nicat tapıb səadətə qovuşasınız.» (Cümə, 10)***

«Allahın kərəmindən ruzi diləyin» ifadəsi çox vaxt Quranda ruzi diləyib ticarət etmək mənasındadır. Lakin demək olar ki, bu ifadənin məfhumu kimi, ruzi və ticarət onun nümunələrindəndir. Bu ayə ruzi qazanmağın gününü məhdudlaşdırıb yalnız cümə günündə işləməyi tövsiyə etmir. Lakin bəziləri bu ayəni əsas gətirərək deyirlər ki, cümə namazından sonra ruzi ardınca getməyin bərəkəti vardır. Rəvayətlərdə nəql olunur ki, Peyğəmbər (s) cümə namazından sonra bazara baş çəkərdi.

Ruzi qazanmağın ibadət olduğunu bəyan edən rəvayətlərin bəzilərini qeyd etməyimiz yerinə düşər. İmam Baqir (ə) İslam peyğəmbərindən nəql edir ki Həzrət (s) buyurur: «İbadət yetmiş hissədən ibarətdir. Onların ən yüksəyi halal ruzi tələb etməkdir.»Əbu Həmzə İmam Baqirdən (ə) nəql edir ki, buyurur: «Hər kim əhalidən ehtiyacsız olmaq, onların yanında öz hörmətini qorumaqdan ötrü dünya malının ardınca olsa və bu mal-dövlət istəmək və çalışmaq insanın öz ailəsinə və qonşularına kömək üçün olsa, qiyamət günü üzü on dörd gecəlik ay kimi parlayan halda Allahın hüzuruna gələr.»İmam Cəfər Sadiq (ə) buyurur: «Hər kəs özü və övladlarından ötrü halal yolla ruzi ardınca olsa, Allah yolunda cihad edən bir əsgər kimidir.»

Ruh ibn Əbdürrəhim İmam Sadiqdən (ə) nəql edir: «O həzrət, «O şəxslər ki, ticarət və alış-veriş Allahı xatırlamaqda onlara mane olmur» ayəsinin təfsirində buyurur: «Onlar hesab-kitab əhli idilər. Hər vaxt namazın vaxtını eşitsəydilər ticarəti buraxıb namaza gedərdilər. Bunlar mükafat cəhətdən də üstündürlər.»

Bəzi insanlar işlərin çoxluğunu bəhanə gətirərək namaz qılmırlar. Onların qazancları heç də ibadət sayılmır. Yalnız o nemətlərdən dünyada istifadə edə bilərlər. Ümumiyyətlə insanın işi ibadətlə birgə olmalıdır. Onda onun işi ibadətlərin ən üstünü sayıla bilər. İnsanın iqtisadi vəziyyəti o halda olmalıdır ki, onu ibadətdən uzaqlaşdırmasın və eyni halda etdiyi ibadəti ixlasla (xalis Allaha görə) əmələ gətirsin. Əmirəlmöminin Əli (ə) buyurur: «Torpağı və suyu olub, fərasətsizliyi ucbatından fəqir olanı Allah öz rəhmətindən uzaqlaşdırar.»

Bir gün Rəsuli-Əkrəmin (s) hüzurunda zöhd (zahidlik) və təqvada üstün olan, oruc və namazla məşğul olan bir nəfərdən söz açılır. Dedilər: «Ya Rəsulullah, biz ondan üstün abid tanımırıq.» Peyğəmbər (s) buyurdu: «Nə ilə məşğul olur?» Dedilər: «İşsizdir.» Həzrət buyurdu: «Bəs yaşayış xərcini hardan ələ gətirir?» Dedilər: «Onun yaşayış xərcini biz veririk.» Rəsuli Əkrəm (s) buyurdu: «Siz hamınız ondan abidsiniz.»

Bəziləri var-dövlət qazanmağı özlərinin başlıca məqsədi bilirlər. Onların istəkləri o səviyyəyə çatır ki, var-dövlət onlar üçün ilahiləşir və əllərindən çıxan kimi dəhşətli xəstəliklərə düçar olurlar. Hətta bəziləri qəfil müflisləşmə xəbərlərini eşidib dünyalarını dəyişirlər.

Əslində insan var-dövləti özünün məqsədi yox, Allaha daha da yaxın olmaq üçün bir vasitə hesab etməlidir. Belə insanların var-dövlətləri əldən çıxsa da heç vaxt kədərlənmir və deyirlər: «Allah vermişdi, Allah da aldı.» Onlar əsl möminlərdir.Biz hamımız Allah üçünük və Ona tərəf qayıdacağıq!

Fərhad Mirzə

# ZÜMRÜD DAŞI

***Xalis zümrüd daşlarından əsasən İran və Rus şahları istifadə edirdilər. Tarixi tədqiqatlar zümrüdün Firon məzarlıqlarından çıxdığından xəbər veirir. Kleopatra zümrüdə xüxusi zövqlə yanaşırdı. Hələ qədim zamanlardan indiyədək zümrüd xüsusilə Şərqdə dəyərini və nadir tapıntı olduğu haqda fikirləri qoruyub saxlamaqdadır.***




***Gözəlliyi ilə yanaşı, zümrüd həm də müsbət psixoloji təsirə malikdir. Belə ki, onu gəzdirən şəxs özünü rahat, sərbəst, qayğısız, arxayın və yüksək əhval-ruhiyyədə hiss edir.***

***Zümrüd - briliyantdan sonra ən qiymətli daş hesab olunur. Qədim zamanlarda ona smaraqd deyərdilər.***

## *Təsir*

*Zümrüdün yaşıl rəngi gəncliyin, həyatın, harmoniyanın, xoş xatirə və arzuların, baharın nişanəsidir. Qeyd olunan xüsusiyyətlərlə birlikdə istər qədim dinlər, istərsə də İslam ədəbiyyatında zümrüdün yoxsulluğun aradan qalxması, həmçinin cadu və tilsimə qarşı müsbət təsir göstərildiyindən xəbər verir.*

*Əlbəttə, zümrüd o zaman müsbət təsir göstərə bilər ki, insan ilahi göstərişlərə əməl edib Allahın halalını halal, haramını da haram bilsin. 5 karatlıq zümrüd almaz daşından da baha olur. Moos şkalası ilə zümrüd daşının möhkəmliyi - 7, 5, 8, almazın möhkəmliyi isə 10 vahiddir.*



## *Əks təsir*

*Yəni bu o demək deyil ki, zümrüddən hazırlanan zinət əşyalarından istifadə edən şəxs faydalı əməllə məşğul olmaq əvəzinə, kimsə ona yardım edəcəyini gözləməli və ya «onsuz da zümrüd məni cadu və tilsimdən qoruyacaq» «məntiqini» əsas tutaraq Allahın vacib buyurduqlarına əməl etməməlidir.*

## *Saxtakar*

*Süni zümrüdlər xalis zümrüdlərə çox bənzəsələr də, 360-liq ultrobənövşəyi şüanın filtirləşməsi ilə özünü biruzə verir. Belə ki, xalis zümrüdə təsir edə bilməyən ultrobənövşəyi süa sintetik zümrüdlərə şabalıdı rəngdəki lüminessensiya (soyuq işıqlanma, temperaturun artması nəticəsində deyil, başqa səbəblərdən əmələ gələn işıqlanma hadisəsi - red) aşkar edir.*



*Zümrüd əsasən Kolumbiyanın Muso, Cənubi Afrika respublikasının Transvaal və Uralın Malişevski əyalətlərində əldə olunur.*

# Halallığın mükafatı...

Məşhur alim İbn Cövzi “Səfvətüs-səfvə” kitabında tarixçi Təbərinin dilindən maraqlı bir hadisə nəql edir. Bu hadisə hicri 240-cı (təqribən miladi 855-ci) ildə Məkkədə baş vermişdi, o zaman Təbərinin 16 yaşı vardı.

Təbəri xatırlayırdı ki, həmin il həcc mövsümündə Məkkədə elmi fəaliyyətlə məşğul idim, “Nəsəb” kitabını yazırdım. Bir gün əslən Xorasandan olan bir nəfər camaatın içində durub haray çəkdi: “Ay hacılar! Mən min dinarlıq pul kisəmi itirmişəm. Hər kim pulları tapsa, mənə qaytarsın. Əvəzində Allah onun savabını artırar”.

Bu vaxt İmam Cəfər Sadiqin (ə) məvalilərindən (azad etdiyi qullarından) olan bir qoca kişi ona deyir: “Bizim şəhərdə çoxlu kasıb adam yaşayır, onların pula ehtiyacı var. Məkkəlilər bir il gözləyirlər ki, həcc mövsümündə ziyarətə gələnlərə xidmət edib çörək pulu qazansınlar. Sən pulu tapan adama gözaydınlığı boyun ol ki, bu halda pulu sənə tez qaytararlar”. Xorasanlı kişi soruşur: “Nə qədər muştuluq verməyimi təklif edirsən?” Qoca cavab verir: “Məsələn, pulun ondan-biri qədər, yəni 100 dinar”. Amma pul sahibi qəti şəkildə etiraz edib söyləyir: “Xeyr, verən deyiləm. Mən bunun savabını Allahın öhdəsinə buraxıram”. Beləliklə, söhbət nəticəsiz qalır, hamı dağılışıb gedir.

Təbəri deyir ki, mən o qocanın pulu tapmasından şübhələndim, arxasınca düşüb onu izləməyə başladım. Qoca köhnə qapılı, uçuq-sökük evinə gəldi, arvadını çağırıb dedi: “Pulun sahibi tapıldı. Amma gözaydınlığı vermək istəmir. Əlac yoxdur, gərək pulu qaytaraq”. Arvadı ah-fəğan etməyə başladı: “Əlli ildir bu xaraba evdə 4 qızımızla, iki bacım və anamla birlikdə yaşayırıq. Gəl bu pulu özümüzə götürüb xərcləyək, bu zillətdən xilas olaq, ağ günə çıxaq”. Qoca etiraz etdi: “Yox, mən 86 yaşlı bu yarımcan bədənimi cəhənnəm alovuna yem edə bilmərəm”.

Növbəti gün xorasanlı kişi yenə adamların arasında elanını təkrar edir. Bu dəfə qoca təklif edir ki, pulu tapan adama dünən dediyindən on dəfə az, yəni on dinar verməyə razı olsun. Pul sahibi yenə imtina edib deyir ki, pulu tapanın savabını Allahın öhdəsinə buraxıram.

Ertəsi gün hadisə bir daha təkrar olur. Qoca bu dəfə deyir: “Dünən srağagün dediyimin ondan-bir hissəsini gözaydınlığı olaraq verməyini təklif etdim. Bu gün məbləği on dəfə də azaldıram. Heç olmasa,



pulu tapan adama bircə dinar ver. Qoy yarım dinara özü üçün su tuluğu alsın, onunla hacılardan ötrü muzdla su daşısın. Yarım dinara da bir qoyun alıb, südü ilə ailəsini saxlasın”. Xorasanlı kişi yenə təklifi rədd edir: “Heç kimə pul verən deyiləm, qoy əvəzini Allah versin”.

İş bu yerə çatanda qoca daha dözmür, xorasanlı kişinin əlindən tutub deyir: “Gəl gedək, sənin min dinarını qaytarım. Pulunu apar, məni bu narahatçılıqdan qurtar”. Təbəri deyir ki, mən də onlara qoşulub qocanın evinə gəldim. Qoca pul kisəsini gətirib xorasanlıya təhvil verdi, o da pulu alıb saydı. Evdən çıxmaq istəyəndə yarıyoldan qayıdıb qocaya dedi: “Atam öləndə üç min dinar pul qoymuşdu. Vəsiyyət etmişdi ki, onun paltarlarını satıb, pulu ilə həccə gedim, savabını ona hədiyyə edim. Həm də vəsiyyət etmişdi ki, min dinarı ayırıb saxlayım, ən ehtiyaclı adamı tapanda ona verim. Mən də atamın vəsiyyətinə əməl edib həccə gəlmişəm, itirdiyim pul da həmin min dinar idi. Onun üstündən götürə bilməzdim, ona görə də pulu tapana heç nə boyun olmadım. Görürəm ki, rastıma çıxan ən ehtiyaclı və vicdanlı adam elə sənsən. Ona görə də bu pulu sənə verirəm”. Xorasanlı kişi bunu deyib, pul kisəsini qocaya verdi, özü isə çıxıb getdi.

Qoca sevincək halda bütün ailə üzvlərini çağırdı, məni də onlarla bir sırada otuzdurub dedi: “Bu otaqda on nəfərik. Allah Rəsulu buyurub ki, əgər siz xahiş etmədən əlinizə pul gəlsə, qaytarmayın; bilin ki, bu, Allahın lütfü və ehsanıdır. Bu pul da Allahın bizlərə hədiyyəsidir, gərək onu bərabər şəkildə bölək”. Qoca bunu deyib, pulu on bərabər hissəyə böldü, onlar kimi mənə də yüz dinar düşdü.

Təbəri xatırlayır ki, sevincimdən özümə yer tapa bilmirdim. Pulu bölüşəndən sonra qoca üzünü mənə tutub dedi: “Mən ömrümdə bu qədər pul görməmişdim. Bizim ailədəki qadınların namazda bədənlərini tam örtə bilən paltarı da yoxdur. Hər namaz vaxtı mən əynimdəki bu libasla ibadətimi yerinə yetirirəm, sonra onu çıxarıb qadınlara verirəm, onlar da növbə ilə geyinib namazlarını qılırlar. Bu qədər çətinlikdən sonra Allah mənə sərvət yetirdi. Mən o kişidən pulun bir hissəsini, əvvəlcə ondan birini, sonra yüzdən-birini, daha sonra mindən-birini istəyirdim. Amma elə oldu ki, axırda pulun demək olar ki, hamısı ailəmə qismət oldu. Sənin payın da bərəkətli olsun. Bu pulu vəsiyyət edən adama Allah rəhmət eləsin, onu gətirib bizə çatdıranın günahlarını bağışlasın”.

Təbəri deyir ki, həmin pul həqiqətən mənim üçün çox bərəkətli oldu. İllər uzunu o pulun hesabına ömür sürdüm, həm yeməyimi təmin etdim, həm də kitab-dəftər aldım, elm dalınca səfərlərə çıxdım.

# *Bəhlul Danəndə və Şeyx Cüneyt*

Bir gün Bağdadın tanınmış alimlərindən Şeyx Cüneyt Bəhlul Danəndəni görmək fikrinə düşür. Yerini öyrənir və yanına gedir. Öncə salam verir. Bəhlul Danəndə salamını aldıqdan sonra kim olduğunu soruşur. Şeyx Cüneyt cavab verir: “Mən Şeyx Cüneyt Bağdadiyəm”



-Sənsən camaatı maarifləndirib doğru yola yönəldən?”

-“Bəli mənəm”.

- “O zaman söylə yeməyi necə yeyirsən?”

- “Öncə Bismillah deyirəm, yeməyi öz qabağımdan yeyirəm, başqalarının üzünə baxmıram, kiçik loxmalar götürür, hər birini ağzıma qoyduğumda Allahın adını zikr edirəm.Yeməkdən öncə və sonra əllərimi yuyuram.

-“Yemək yeməyi belə bilmirsən camaata necə ağıl verirsən” Bunu söyləyib Bəhlul ondan uzaqlaşır. Şeyx Cüneyt əl çəkmir, arxasınca gedir. Bəhlul soruşur “sən kimsən?”

- “Yemək yeməyi bilməyən Şeyx Cüneyt:”

- “ Natiqlik qabiliyyətin necədir?”

- “ Nə qədər lazımsa o qədər danışıram, nə çox az, nə də həddindən çox.Dinləyicilərə görə söhbət edir, onları Allaha və onun Peyğəmbərinin dininə dəvət edirəm.”

- “Yemək yeyə bilmədiyin kimi danışmağı da bilmirsən.Hələ bir söylə necə yatırsan?”

Şeyx Cüneyt - “Gecə namazından sonra gecəliyimi geyib yatağıma uzanıram” deyir ardından da Peyğəmbərin (s) necə yatmağıyla bağlı sünnətlərini sayır.

-“Sən heç yatmağı da bilmirsən.” deyib getmək istəyərkən Şeyx Cüneyt Bəhlulun ətəyindən yapışıb israrla “ Ey Bəhlul sən bunları mənə öyrətməyənə qədər səni heç bir yerə buraxmaram.” deyir. Bəhlul cavabında “ Bilmədiyini etiraf edirsənsə sənə öyrədərəm.

- Yediyin yeməklərdə əsas şərt yediklərinin halal olmasıdır, onlar halal olmadığda saydıqlarının bir mənası yoxdur.

- Söz söyləməyə gəldikdə, başlıcası Allah rizası üçün söylənməli və həqiqət olmalıdır.

- Yatanda isə qəlbində kimsəyə qarşı kin, nifrət olmamalıdır.

# TİFLİS CÜMƏ MƏSCİDİ





*Bir məlumata görə bu məscid 1864-cü ildə tikilibdir, bu məscidin tikintisinə vaxtilə Tiflisdə səfərdə olan Hacı Zeynalabdin Tağıyev də yardım edib. Bəzi köhnə fotoşəkillərdən göründüyü kimi burada digər bir məscidin mövcud olması nəzəri cəlb edir. Məscidin iki mehrabı var. Bu məsciddə 150 ilə yaxındır ki, hər iki məzhəbin nümayəndələri dostluq və qardaşlıq şəraitində vəhdəti hifz edərək birgə ibadət edirlər. Bu məscid sovetlər dövründə fəaliyyətdə olmuş, namaz qılınmış, məhərrəm məclisləri keçirilmişdi. Buraya ibadət etməyə əsasən Kazan tatarları və azərbaycanlılar gəlmişlər. 1996-cı ilin payızında məsciddə Qafqaz müsəlmanları idarəsinin nümayəndəliyi təsis edildi. 1998-ci ildən məscidin nəzdində mədrəsə fəaliyyətə başladı. Burada cümə günləri müxtəlif ölkələrdən gəlmiş yüzlərlə müsəlmanlar yerli möminlərlə birgə namaz qılırlar. Məsciddə bayram namazları qılınır, məhərrəmdə Aşura günü minlərlə İmam Hüseyn(ə) əzadarı toplaşır. Burada iki dəfə, 1997-98-ci illərdə Bakıdakı İran mədəniyyət mərkəzinin maddi dəstəyi ilə naqqaşlıq-tərribat işləri görülmüş, 2007-ci ildə isə Alul-Beyt təşkilatının sponsorluğuyla divarlarda klassik kaşı-mozaika işləri görülmüşdü. Həyətdə xeyriyyəçilərin yardımıyla dəstəmaz yeri və təharətxana tikildi.*

# MÜŞTƏHİD (MÜCTƏHİD) BAĞI

***Bu bağ 19-cu yüzilin 30-cu illərində Kürün sol sahilində əsli Təbrizdən olan böyük İslam alimi Ağa Mir Fəttah Təbatəbainin tərəfindən salınmışdı.***







***General İ. Paskeviçin başçılığı ilə rus qoşunları 1827-ci ildə İran ərazisinə hücuma keçib Abbasabad, Sərdarabad, Naxçıvan və İrəvan qalalarını və digər qalaları almış, sonra Təbriz şəhəri tərəfə hərəkət etmişdi. O zamankı İran şahı Fətəli şah Qacarın vəliəhdi Abbas Mirzənin iqamətgahı burada yerləşirdi. Müxtəlif cəhətlərdən Təbriz şəhəri böyük əhəmiyyətə malik idi.***

***Şah şəhərin müdafiəsini kürəkəni və birinci vəziri Allahyar xana tapşırır. Lakin burada Ağa Mir Fəttah Təbatəbai şah hakimiyyətinə qarşı çıxaraq deyib: - "Əgər İran qoşunu Sərdarabadda və İrəvanda olduğu kimi düzənlikdə, qala arxasından ruslara qarşı çıxa bilmirlərsə, onda dinc əhaliyə əlinə silah alması lazım gəlmir". Beləliklə şəhər ruslara döyüşsüz təslim edilir.***

***Müctəhid niyə şaha qarşı çıxdı? Onun dediyinə görə Qacar şahları qeyri-qanuni hakimiyyətə yiyələnmişdilər. Onlardan qabaq Əfşar tayfası da seyid nəslindən olan Səfəviləri taxtdan salaraq İran taxtını ələ keçirmişdilər. Ağa Mir Fəttah Təbatəbai onların hakimiyyətini qanuni hesab edirdi. Digər tərəfdən xalqı bihudə yerə qırğına vermək istəmirdi. Şah hakimiyyətinin onun bu hərəkətindən çox narazı qaldığını bilən Ağa Təbatəbai, həyatını təhlükədə görüb Rusiya torpağına köçməyə qərara gəldi. 1828-ci il martın 7-də Müctəhid Təbrizi tərk etdi. General İ.Paskeviç, Müctəhidin Tiflisdə yerləşib 2000 çervonluq pensiya almasını, Şirvanda 15 kənddən ibarət mülk, illik gəliri 5360 manat gümüş pul ilə birlikdə hökumətdən qızıl imperator gerbi ilə təltif olunmasını təşkil etmişdi. Bundan başqa Kürün sol sahilində ona (hazırkı müctəhid bağı) 50 desyatin yer ayrılmışdı.***

***1845-ci ildə Rusiya hakimləriylə arasında dərin ixtilaf yaranması səbəbilə (ruslar onun dini nüfuzundan istifadə edərək Qafqaz müsəlmanlarını onun əliylə öz istədikləri kimi idarə etməyə çalışsalar da Ağa Mir Fəttah Təbatəbai heç zaman onların istəyinə əməl etməmişdi), və İranda siyasi vəziyyət nisbətən uyğun olduğuna görə o, öz oğlu ilə İrana köçmüş, 1892-ci il oktyabrın 24-də orada vəfat etmişdi.***



*SOLDAN SAĞA*

*1. Quranın açıqlaması, izahı*
*3. İslam Peyğəmbərini (s) görən və o Həzrət (s) ilə birgə olan və habelə müsəlman halda vəfat edən şəxs.*
*6. Həftənin 5-ci günü*
*8. Quranda bir canlının adı ilə bağlı surə*
*9. "Əgər Allah istəsə" anlamı verən söz*
*11. Şeirin bir növü*
*12. Cənnətin sinonimi*
*14. Səmud qövmü kimi Allahın qəzəbinə düçar olmuş qövm*
*16. Dörd böyük mələklərdən biri*
*17. Müctəhidin özündən soruşmaq*
*18. Haram olmayan, lakin əməl olunması dini baxımdan bəyənilməyən əməl*
*20. Peyğəmbərə vəhy olunan ilk İlahi əmr*
*21. Dini ehkama əsasən malının 5-dən birini Allah yolunda ödəmək*
*24. Zühuru gözlənilən sağ imam*
*26. Müqəddəs şəxslərin ruhuna salam göndərmək məqsədi ilə onların məzarı yerlərinə səfər etmək.*
*27. Quranda adı zikr olunan peyğəmbərlərdən biri*

*ÜSTDƏN ALTA*

*2. Şeytanın adı*
*4. Lüğəti mənası "doğru yola yönəltmə", "doğru yol göstərmə*
*5. "Savab" sözünün sinonimi*
*7. Axund və imam camaatın xütbə edərkən durduğu pilləli kürsü*
*10. Həzrət Muhəmməd Peyğəmbərin (s) adı çəkildikdən sonra onun ruhuna hörmət əlaməti olaraq deyilən söz.*
*13. Həzrət Musanın köməkçisi - Peyğəmbər*
*15. Dini elm mərkəzi*
*16. Namazda iqtida olunan, öndə dayanan şəxs*
*18. Fətva verən şəxs (Dini rütbə)*
*19. Həzrət Muhəmməd Peyğəmbərin (s) və məsum imamların dilindən söylənilən kəlam.*
*21. Allahın adlarından biri (Yaradan)*
*22. Məsum imamların nəslindən, şəcərəsindən olan*
*23. Məkkə ziyarətinin bir növü*
*25. Yaradana yalvarış, zikr*







